UNİKAL

№23 (2303) 26 iyun 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Monopolistlər yenidən hədəfdə: Bahalaşmanın pərdəarxası təfərrüatları



Səh. 8

## 108 illik tarix - Qalib Azərbaycan Ordusu

*Bu gün Azərbaycan Silahlı Qüvvələrinin yaranma günüdür. "Unikal"ın məlumatına görə, Azərbaycan Silahlı Qüvvələri Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 26 iyun 1918-ci il tarixli qərarı ilə Gəncədə yaradılıb. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ordu buraxılıb və 1991-ci il oktyabrın 9-da Ali Sovetin qərarı ilə Silahlı Qüvvələr yenidən yaradılıb. Hazırda Azərbaycan həm döyüş qabiliyyətinə, həm də maddi-texniki imkanlarına görə, Cənubi Qafqazda ən güclü dövlət hesab olunur. Silahlı Qüvvələrin strukturuna Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunları və Hərbi Dəniz Qüvvələri daxildir. Artıq Azərbaycan xalqı Silahlı Qüvvələr gününü...*

Səh. 2

## "Əmlak reyestrinin formalaşdırılması əhəmiyyətli addımdır"



*Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin İdarə Heyətinin sədri Vüqar Oruc "Unikal"a müsahibə verib. O, sənədiz evlər məsələsinin həll edilməsi üçün əmlak amnistiyasının təklif olunmasından, həmin evlərin qiymətinin nə qədər ucuzlaşmasından, illərdir müzakirə olunan bu məsələnin həll edilməsi üçün xüsusi...*

Səh. 4

## Narkomaniya qlobal təhlükədir: "Azərbaycanda 40 mindən çox şəxs qeydiyyatdadır"




*Hər il iyunun 26-sı dünyada Narkomaniya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə təsis edilən bu gün narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomaniyanın yaratdığı təhlükələrə diqqət çəkmək...*

Səh. 9

## Azərbaycanın rəqəmsal müdafiəsində yeni mərhələ



*Bugünlərdə Azərbaycanın rəqəmsal transformasiya yolunda növbəti mühüm addım atılıb. Prezident tərəfindən imzalanan yeni Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında fəaliyyət göstərən Elektron Təhlükəsizlik Xidmətinin bazasında Milli Kibertəhlükəsizlik Agentliyi publik hüquqi şəxs yaradılıb.*

Səh. 11

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 2



# Mətanət İsgəndərli: "Sanki övladını aparıblar, amma demirlər kimindir"



***Əməkdar artist Mətanət İsgəndərli mahnılarını ifa edən müğənnilərin müəllif adına hörmətlə yanaşmamasından gileylənib.***

"Unikal" xəbər verir ki, sənətçi "Xəzər axşamı" verilişində qonaq olarkən mahnıların ifa edildiyi zaman müəllif adının çəkilməməsini "bir uşağın kimin övladı olduğunu gizlətməyə" bənzədib.

"Mən bütün mahnılarımı öz övladım kimi görürəm. İnanın ki, bu belədir. Çünki musiqi insanın canından, ruhundan qopub gəlir. Həmişə deyirəm ki, qoy mahnılarımı hamı oxusun, mən buna qarşı deyiləm. Amma sanki "övladını aparıblar, ancaq demirlər ki, bu kimin uşağıdır". Adama necə təsir edər?.

Mən bunu sadəcə halallıq üçün deyirəm. Onsuz da bu dünyadan özümüzlə heç nə aparmayacağıq, hər şey burada qalacaq, heç nə bizim deyil. Sadəcə, ortada insan haqqı və halallıq məsələsi var". (Axşam.az)

# "Heç bir dünya ulduzu 2 saat toyda otura bilməz" - Nadir Qafarzadə



***Müğənni Nadir Qafarzadə xarici ulduzlarla yerli ifaçıların müqayisəsinə münasibət bildirib.***

Sənətçi bu barədə "İzzət şou" proqramında danışıb. İfaçı xarici müğənnilərin çıxışlarında istifadə olunan bahalı səs avadanlıqlarına diqqət çəkərək, Azərbaycanda fəaliyyət göstərən sənətçilərin daha çətin şəraitdə çıxış etdiyini deyib: "Deyirlər ki, filan dünya ulduzu stadionda necə ifa etdi. O aparatların qiymətindən xəbəriniz var? Bəlkə də 10-15 milyon dəyərindədir. Həmin avadanlıqla hər kəs yaxşı səslənə bilər", - deyə o bildirib.

Nadir Qafarzadə qeyd edib ki, bir çox xarici sənətçilər konsertdən əvvəl texniki şəraiti yoxlayır və uyğun olmayan avadanlıqla səhnəyə çıxmırlar. Onun sözlərinə görə, Azərbaycan müğənniləri isə daha çətin şəraitdə belə canlı ifa etməyi bacarırlar: "Bu yaxınlarda rayonların birində idim. Vəziyyətə görə aparat elə idi, məcbur da etmək olmur, imkan odur. Məcbur oxudum. Sonda mənə dedi ki, "əjdahasan". Heç bir dünya ulduzu 2 saat toyda otura bilməz. Dəyər verin bizimkilərə. Bizim ən zəif ifaçımız onların ən yaxşı müğənnisindən güclüdür. Onun-bunun üçün ölməyin, bir az da bizim üçün. Arada bir "can" deyin".

# Səidə Dadaşova: "Atamın vəfatından sonra evdə aynalarımız bağlandı"



***Müğənni Səidə Dadaşova atası, Xalq artisti Rafael Dadaşovun vəfatından sonra güzgülərə baxa bilmədiyini etiraf edib.***

Milli.Az xəbər verir ki, bu barədə ifaçı "Afaqla 10lar" verilişində danışıb: "Ayna son zamanlar məni çox kövrəldir. Atamın vəfatından sonra evdə aynalarımız bağlandı. Ondan sonra aynaya mənfi bir şey kimi baxıram, artıq o qədər də sevmirəm. Çalışıram çox baxmayım. Elə bilirəm ki, atamın ruhunu görürəm. Ayna da onu əks etdirir. Dedilər ki, çalışın dünyasını dəyişmiş insanların portretlərini evdə divardan asmayın". (Axşam.az)

# "Süni tıxac niyə yaradılır?" - Nura Suri



***Müğənni Nura Suri paytaxtda yaşanan nəqliyyat sıxlığından narazılığını ifadə edib.***

Sənətçi bununla bağlı sosial şəbəkə hesabında paylaşım edərək Babək prospektindəki vəziyyətə diqqət çəkib.

O, prospektdə yaranan avtomobil sıxlığını əks etdirən görüntüləri izləyiciləri ilə bölüşərək tıxacın süni şəkildə yaradıldığını iddia edib.

Nura Suri bildirib ki, məktəblərdə tədris prosesi başa çatdığı halda belə, yollardakı vəziyyət dəyişmir: "İndi ki, məktəblər yoxdur. Günorta saat üçdür. Babək prospektinin çıxışı sanki sərhəddir. Bura gün ərzində 2-3 dəfə bağlanır. Süni tıxac niyə yaradılıb burada?".

# Hüseyn Məhəmmədoğlu: "Get dişini düzəlt, pulun yoxdur?"



***Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu izləyicilərin onu dişlərinə görə qınadığını bildirib.***

Bu barədə sənətçi "Həyatın dadı" verilişində danışıb: "İnsanı bilmədən qınayırlar, yazırlar. Məsələn, mənim dişim əyridir, biri qısadır, biri uzundur. Bunu düzəltməyə heç pul da lazım deyil. Sosial şəbəkədə reklam etsəm, hazırdır. Mənim stomatoloq dostlarım da var. Deyirlər ki, gəl, onu havayı edək. Amma olmaz, bu klarnetə görə olub və onun yerinə alınıb. Buna əl vurmaq olmaz. Bunu etsəm, çörəyimdən olacağam. Camaat da yazır ki, "get dişini düzəlt, pulun yoxdur?". Ay dostlar, ay qardaşlar, bu klarnetə görədir. Alınası bir iş deyil. Ona görə onsuz da qınayacaqlar". (Axşam.az)

# FHN Aqşin Fatehin restoranını bağladı



***Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti yanğın təhlükəli obyektdə yoxlama aparıb.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, qurumun apardığı yoxlamaların nəticəsində paytaxtın Azadlıq prospekti 231 ünvanında yerləşən "By Fateh" restoranının fəaliyyəti dayandırılıb. Restoranın qapısı möhürlənib.

Qeyd edək ki, adıçəkilən restoran tanınmış meyxanaçı Aqşin Fatehə məxsusdur.

Xatırladaq ki, daha əvvəl də sözügedən restoranın fəaliyyəti bir neçə dəfə dayandırılıb.

25_27 IYUI-QARA.qxd 6/25/2026 10:54 PM Page 3





## Kartlardan pul silinib, yoxsa oğurlanıb? - Ekspertdən açıqlama

***"Ötən gün ABB, AccessBank, Yelo Bank və digər bankların müştərilərinin kart hesablarından vəsaitlər yoxa çıxıb. Bu bankların ortaq cəhəti odur ki, hamısı "Azericard" prosessinq mərkəzinə bağlıdır".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz sosial şəbəkə hesabında yazıb.

"ABB problemi "3-cü tərəf provayderi" ilə bağlı texniki nasazlıqla izah edib. "Azericard" baş verənlərin banklararası hesablaşma fayllarının emalı zamanı yarandığını, lakin səbəbin ""Azericard"dan asılı olmadığını" bildirib. Mərkəzi Bank isə hadisənin kibermüdaxilə deyil, texniki səbəbdən baş verdiyini, ödəniş infrastrukturunda problem olmadığını açıqlayıb.

Amma problemin kökü və məsuliyyət indiyədək açıqlanmayıb. Hansı ki, ictimai etimad baxımından ən vacib məqam da elə budur.

Banklardan əldə etdiyim məlumatlar, müşahidələrim və Mərkəzi Bankın açıqlaması göstərir ki, baş verənlər böyük ehtimalla kiber hücum deyil.

Silinmələr təsadüfi deyil, real əməliyyatların təkrarıdır.Vəsaitlər dərhal geri qaytarılır, balanslar avtomatik bərpa olunur. Bu, oğurluğun yox, dublikasiyanın olduğunu göstərir. Yəni "pulu aparan" kənar, yaxud kiber müdaxilə deyil, bankların öz informasiya sistemidir.

Bir neçə müstəqil bankın eyni anda eyni problemlə üzləşməsi yalnız ortaq bir halqa ilə izah oluna bilər. Bu zəncirdə ortaq element ikidir: MB-nin hesablaşma infrastrukturu və "Azericard" prosessinqi. MB öz infrastrukturunda problem olmadığını birmənalı açıqladığına görə, məntiqlə ortaq element kimi "Azericard" qalır.

Onun "hadisə mənim ərazimdə olub, amma günah məndə deyil" tipli dumanlı açıqlaması da problemin böyük ehtimalla məhz prosessinq mərkəzindəki emalda olduğuna işarə edir.

Üstəlik də, hesablaşma zəncirində bir anomaliya baş verirsə, sistem onu dərhal aşkarlayıb bloklamalı idi. Anomaliyanın tutulmaması və təkrar əməliyyatların eyni anda bir neçə bankı vurması göstərir ki, belə kritik qurumda bu mexanizmlər ya yoxdur, ya da təkmil deyil. Düşünürəm ki, belə bir xətadan sonra MB daha sərt addımlar atmalı idi.

Problem ABB-də, yaxud digər banklarda deyil, məhz MB-nin nəzarəti və lisenziyası altında işləyən qurumda - "Azericard"da yaranıb. Xatırladaq ki, əvvəllər də burada problemli situasiyalar olub. Ümid edirəm, MB hadisəni araşdırıb ciddi audit təşkil edəcək.

Banklardan isə zərər çəkənlərə qarşı həssaslıq gözlənilir", - deyə O.Gündüz əlavə edib.

# Özəl klinikalarla bağlı yeni ağlasığmaz qalmaqallar silsiləsi

## 30 milyon manat borcu olan hospital fəaliyyətini heç nə olmamış kimi davam etdirir - Qalmaqallı estetik mərkəzin isə yeni "qurbanı" ortaya çıxdı

***Azərbaycanda fəaliyyət göstərən özəl tibbi və estetik klinikaları ilə bağlı qalmaqalların ard-arası kəsilmir. Son günlər də sözügedən müəssisələrdən gələn və bir çox hallarda izahı mümkünsüz xəbərlər belə düşünməyə əsas verir.***

Məsələn, Paytaxt Bakıda fəaliyyət göstərən aparıcı xəstəxanalardan birinin - "Caspian International Hospital" MMC-nin (VÖEN - 1701111241) dövlət büdcəsinə böyük həcmdə vergi borcu yaranıb. Açıqlanan rəsmi məlumatlardan belə aydın olur ki, "Caspian International Hospital"ın 23 iyun 2026-cı il tarixinə olan vergi borcu 29 milyon 357 min 570 manat 92 qəpik təşkil edib (yeniavaz.com).

### Böyük məbləğdə borcu var, amma...

Məlumat üçün bildirək ki, 2010-cu ildə VÖEN alan "Caspian International Hospital" MMC-nin nizamnamə kapitalı 10 manatdır. Hüquqi ünvanı Səbail rayonu, Əlibəyov qardaşları küçəsi, ev 67, mənzil 29-da yerləşən MMC-nin qanuni təmsilçisi Abbasov Cəbrayıl Neymət oğludur.

Qeyd edək ki, Cəbrayıl Abbasov eyni zamanda "Medical Organization" MMC-nin də (VÖEN - 1805978751) qanuni təmsilçisidir.

Onu da bildirək ki, dövlət büdcəsinə 29,3 milyon manat vergi borcu olan "Caspian International Hospital"ın sosial şəbəkə hesablarında davamlı reklam paylaşımları edilir. Yayılan məlumatlardan açıq şəkildə görünür ki, böyük məbləğdə borcunun olmasına baxmayaraq, "Caspian International Hospital" öz fəaliyyətini davam etdirir.

Xatırladaq ki, Azərbaycan Konstitusiyasının 73-cü maddəsində qeyd olunur ki, qanunla müəyyən edilmiş vergiləri və digər dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Eyni zamanda, Vergi Məcəlləsinin 65-ci maddəsi vergi orqanlarına vergi borcu olan vergi ödəyicilərinin bank hesabları üzərində sərəncam vermək səlahiyyəti verir. Bundan başqa, Cinayət Məcəlləsinin 213-cü maddəsinin tələblərinə əsasən, vergi orqanları vergiödəyicisi barəsində cinayət işi aça bilər. Cinayət Məcəlləsinin tələblərinə görə, 500 min manatdan çox (xüsusilə külli miqdarda) vergi borcu olan vergiödəyiciləri beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilərlər.

### "Dr. Gülü"nün yeni "qurbanından" şok iddialar!

Bu arada Bakı sakini İnci Babayeva sosial şəbəkədə gördüyü reklam əsasında müraciət etdiyi estetik mərkəzdə uğursuz əməliyyatın qurbanı olduğunu bildirib. Zərərçəkmiş qeyd edib ki, bu il iyunun 17-də TikTok platformasında tanınmış blogerlərin reklamlarını gördükdən sonra "28 May" metrostansiyasının yaxınlığında yerləşən "Billur Estetik" mərkəzinə üz tutub. Onun sözlərinə görə, burada özünü mütəxəssis kimi təqdim edən Gülbadi Abdullayeva tərəfindən üz nahiyəsində temporal liftinq əməliyyatı aparılıb (musavat.com).

Şikayətçi iddia edir ki, əməliyyatdan dərhal sonra vəziyyəti pisləşib. O, şiddətli ağrılar və qanaxmaların başladığını, hazırda isə ağzının sağ tərəfini tam hiss etmədiyini bildirib. Zərərçəkmişin sözlərinə görə, əməliyyat zamanı üz sinirləri zədələnib.

Onun iddiasına əsasən, yaranan problemlərlə bağlı yenidən klinikaya müraciət etsə də, ona hər şeyin normal olduğu bildirilib və şikayətləri ciddi qəbul edilməyib. Ağrıların dözülməz həddə çatdığını deyən İnci Babayeva daha sonra Sabunçu Tibb Mərkəzinə müraciət edib. Burada aparılan ilkin baxış zamanı yaranın düzgün tikilmədiyi, kəsik nahiyəsindən qan və ifrazat gəldiyi müəyyən olunub.

Zərərçəkmiş onu da bildirib ki, əməliyyatdan sonra araşdırma apararkən öyrənib ki, əməliyyat icra edən Gülbadi Abdullayevanın tibbi təhsili, diplomu və ya cərrahi fəaliyyət göstərmək üçün rəsmi icazəsi yoxdur. İ.Babayeva həmin şəxsin əsl peşəsinin saç ustası olduğunu da iddia edir.

Zərərçəkmiş bildirir ki, hadisədən sonra nə əməliyyatı həyata keçirən şəxs, nə də klinika rəhbərliyi onun vəziyyəti ilə maraqlanıb. Onun sözlərinə görə, edilən zənglərə əsasən köməkçilər cavab verir və məsuliyyətdən yayınmağa çalışırlar. Hazırda həm fiziki, həm də psixoloji cəhətdən ağır vəziyyətdə olduğu bildirilən İnci Babayeva aidiyyəti dövlət qurumlarına və hüquq-mühafizə orqanlarına müraciət edərək hadisənin araşdırılmasını, məsul şəxslərin qanun qarşısında cavab verməsini tələb edir.

Qeyd edək ki, məsələ ilə bağlı klinika və həkimlə əlaqə saxlamaq mümkün olmayıb.

Onu da bildirək ki, "Dr. Gülü" adı ilə tanınan Gülbadi Abdullayeva bundan əvvəl də sosial şəbəkələrdə mübahisəli paylaşımları ilə gündəmə gəlib. Özünü estetik mütəxəssis kimi təqdim edən şəxs xüsusilə əməliyyat otağında çəkilmiş videoları və rəqs görüntüləri ilə geniş müzakirələrə səbəb olmuşdu.

### Cərimələnən klinikadan Səhiyyə Nazirliyinə ittiham!

Bu arada Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti, 97c ünvanında yerləşən "Doktor Aygün" Tibb Mərkəzində yoxlama aparılıb. Klinikada keçirilən planlı yoxlama zamanı lisenziyadan kənar (mikrobioloji, infeksion) işlər üzrə fəaliyyətin olması faktı aşkarlanıb. Nəticədə klinika rəhbəri barəsində əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan (Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması) inzibati xəta protokolu tərtib olunub. Protokol İnzibati Xətalar Məcəlləsinin 215.1-ci maddəsi ilə irəli sürülüb və işə məhkəmədə baxılıb (Qaynarinfo).



Məhkəmədə MMC-nin nümayəndəsi Hümbət İsgəndərov Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən planlı (növbəti) yoxlamanın keçirilməsinin qanunsuz olduğunu deyib. Onun sözlərinə görə, mərkəz tərəfindən müvafiq qanunun tələbinə əsasən planlı yoxlama aparılmazdan öncə azı 5 gün qabaq bildiriş göndərilməli olduğu halda, buna əməl edilməyib.

Buna baxmayaraq, məhkəmənin hökmü ilə "Doktor Aygün" Tibb Mərkəzi MMC İnzibati Xətalar Məcəlləsinin 215.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinib və 6000 manat cərimə olunub.

Qeyd edək ki, nizamnamə kapitalı 20 manat olan "Doktor Aygün" Tibb Mərkəzi MMC-nin qanuni təmsilçisi Ələsgərov Şahin Şıxı oğludur.

### Və sonda:

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən özəl tibb müəssisələrində ciddi problemlərin mövcudluğu sirr deyil. Bu cür klinikalar ətrafında qalmaqallar illərdir səngimək bilmir; onlarda qiymət və xidmət keyfiyyəti baxımından nöqsanlar azalmaq əvəzinə artır. Üstəlik, mövcud nöqsanların aradan qaldırılması üçün hansı tədbirlərin görüldüyü və ya görülməli olduğu, sözügedən tibb müəssisələrinin fəaliyyətindəki boşluqların haradan qaynaqlandığı və necə ortaya çıxdığı uzun müddətdir müzakirə olunan əsas məsələlərdən biridir.

Lakin təəssüf ki, illər dəyişsə də, vəziyyət dəyişmir: birbaşa əhalinin sağlamlığı ilə bağlı olan bu durum olduğu kimi qalır, hətta getdikcə ağırlaşır - özəl klinikalar müxtəlif qalmaqalların mənbəyi olaraq qalır. Bu isə onlar üzərində nəzarət mexanizmlərinin gücləndirilməsi zərurətini ortaya qoyur.

***Toğrul Əliyev***

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 4



# Narkomaniya qlobal təhlükədir:

## "Azərbaycanda 40 mindən çox şəxs qeydiyyatdadır"

***Hər il iyunun 26-sı dünyada Narkomaniya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə təsis edilən bu gün narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomaniyanın yaratdığı təhlükələrə diqqət çəkmək, cəmiyyətin maarifləndirilməsini gücləndirmək və dövlətlərin bu istiqamətdə əməkdaşlığını təşviq etmək məqsədi daşıyır.***

Müasir dövrdə narkomaniya yalnız ayrı-ayrı şəxslərin sağlamlığına təsir göstərən problem deyil. Bu təhlükə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, gənclərin gələcəyinin məhv olmasına və bütövlükdə cəmiyyətin sosial rifahına ciddi zərbə vurur. Narkotiklərin qanunsuz dövriyyəsi isə transmilli cinayətkarlığın ən gəlirli sahələrindən biri hesab olunur və bir çox ölkələrin təhlükəsizlik sistemləri üçün ciddi çağırış olaraq qalır.

Son illər dünyada sintetik narkotiklərin yayılması, sosial şəbəkələr və internet üzərindən narkotik ticarətin genişlənməsi bu sahədə mübarizəni daha da çətinləşdirib. Ekspertlərin fikrincə, narkomaniya ilə mübarizə yalnız hüquq-mühafizə tədbirləri ilə məhdudlaşmamalı, eyni zamanda maarifləndirmə, sosial dəstək və profilaktik tədbirlərlə müşayiət olunmalıdır.

Azərbaycanda da narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq qalır. Hüquq-mühafizə orqanları tərəfindən mütəmadi əməliyyatlar keçirilir, böyük həcmdə narkotik vasitələr dövriyyədən çıxarılır, gənclər arasında maarifləndirmə tədbirləri həyata keçirilir.

Rəsmi statistikalar göstərir ki, narkotiklərlə mübarizə istiqamətində aparılan tədbirlər 2026-cı ildə də davam etdirilib. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun məlumatına görə, cari ilin yanvar-may aylarında hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 3766 cinayət faktı aşkarlanıb. Onlardan 890-ı narkotik vasitələrin qanunsuz satışı, 2841-i qanunsuz əldə edilib saxlanılması, 33-ü narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi, 2-si isə digər cinayət faktları ilə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə 4 ton 263 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə müsadirə edilib. Müsadirə olunan narkotiklərin böyük hissəsini marixuana təşkil edib. Rəsmi məlumatda qeyd olunur ki, qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin ümumi bazar dəyəri 111 milyon manatdan çox qiymətləndirilir.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 2110 nəfər cinayət məsuliyyətinə cəlb olunub. Onlardan 25-i xarici ölkə vətəndaşıdır. Eyni zamanda, narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi ilə bağlı 73 fakt aşkarlanıb və bu faktlar üzrə 1 tondan artıq narkotik vasitə dövriyyədən çıxarılıb.

Mübarizə tədbirləri çərçivəsində müsadirə edilmiş narkotik vasitələrin məhv edilməsi istiqamətində də işlər görülüb. Belə ki, 2026-cı il yanvarın 30-da Dövlət Komissiyası tərəfindən 25 məhkəmə və istintaq qərarı əsasında 858 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə, minlərlə həb və ampul yandırılaraq məhv edilib. Bundan əlavə, müxtəlif rayon və şəhərlərdə keçirilən tədbirlər zamanı yüzlərlə məhkəmə hökmü üzrə müsadirə olunmuş narkotik vasitələrin də məhv edilməsi təmin olunub.

Narkomaniyanın qarşısının alınması istiqamətində profilaktik tədbirlər də davam etdirilir. Cari ilin ilk beş ayı ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların iştirakı ilə 110 maarifləndirici tədbir və sosial aksiya keçirilib. Həmçinin ”802” qaynar xəttinə daxil olan müraciətlər əsasında narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, istifadəçilərin müalicəyə cəlb olunması və ailələrə psixoloji dəstəyin göstərilməsi istiqamətində tədbirlər görülüb.

Bütün bunlar göstərir ki, narkomaniya və narkobiznesl ə mübarizə təkcə hüquq-mühafizə orqanlarının deyil, həm də cəmiyyətin, ailələrin və təhsil müəssisələrinin birgə fəaliyyətini tələb edən mürəkkəb sosial problem olaraq qalır.




Bəs hazırda Azərbaycanda narkomaniya ilə bağlı vəziyyət necədir? Gənclərin bu təhlükəli asılılığa sürüklənməsinin əsas səbəbləri nələrdir və problemin qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

Mövzu ilə bağlı ”Unikal”a açıqlama verən sosioloq Üzeyir Şəfiyev bildirib ki, narkomaniya artıq qlobal xarakter almış problemlərdən biridir və dünyanın bir çox ölkəsində milyonlarla insan bu bəladan əziyyət çəkir: ”Narkomaniya bu gün qlobal problemdir. Dünyanın bir çox ölkələrində geniş yayılıb və milyonlarla qurbanı var. Azərbaycanda da təəssüf ki, narkomanların sayında artım dinamikası müşahidə olunur. Rəsmi statistikaya nəzər saldıqda görürük ki, narkoloji qeydiyyatda olan şəxslərin sayı 40 mindən çoxdur. Maraqlı və narahatedici məqamlardan biri də qadınlar arasında narkoloji asılılığın artmasıdır. Rəsmi rəqəmlərə görə, artıq min nəfərdən çox qadın narkoloji qeydiyyatdadır. Kişilərin sayı daha çox olsa da, qadınlar arasında da artım tendensiyası müşahidə edilir. Digər ciddi məqam narkomaniyanın gəncləşməsidir. Bu gün gənclər arasında narkotik istifadəçilərinin sayında artım müşahidə olunur. Bu isə gələcək nəsillər üçün ciddi təhlükə hesab edilməlidir”.

Sosioloq qeyd edib ki, problemin dərinləşməsinin bir sıra səbəbləri var və bunlardan biri Azərbaycanın yerləşdiyi coğrafi mövqedir: ”Azərbaycan elə bir bölgədə yerləşir ki, ətraf ölkələrdə narkomaniya problemi kifayət qədər geniş yayılıb. İran, Rusiya, Türkiyə və Gürcüstan kimi qonşu ölkələrdə narkotik istifadəçilərinin sayı milyonlarla ölçülür. Azərbaycan həm də tranzit bölgədir. Bu səbəbdən narkotik vasitələrin ölkəyə daxil olması və yayılması riskləri daim mövcuddur. Digər tərəfdən, ölkə daxilində narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyası ilə bağlı faktlar vaxtaşırı aşkarlanır. Hüquq-mühafizə orqanları bu istiqamətdə ciddi və qətiyyətli mübarizə aparır. Mütəmadi olaraq əməliyyatlar keçirilir, qanunsuz əkin sahələri aşkarlanır. Buna baxmayaraq, təəssüf ki, hələ də bəzi şəxslər bu fəaliyyətlə məşğul olurlar”.

Ü.Şəfiyev hesab edir ki, narkomaniyaya qarşı mübarizədə mövcud metodologiyanın yenilənməsinə ehtiyac var: ”İllərdir narkotiklərin dövriyyəsinə və istifadəsinə qarşı mübarizə aparılır. Amma statistika göstərir ki, problem tam aradan qalxmır. Bu isə onu deməyə əsas verir ki, yanaşmalar və metodologiya yenidən nəzərdən keçirilməlidir. Həm hüquq-mühafizə orqanlarının fəaliyyətində, həm də maarifləndirmə istiqamətində yeni üsullara ehtiyac var.

Tədbirlər kampaniya xarakteri daşımamalıdır. Məktəblərdə, ali təhsil müəssisələrində, əmək kollektivlərində davamlı və sistemli iş aparılmalıdır. İnsanlar narkotiklərin yaratdığı təhlükələr barədə daha dolğun məlumatlandırılmalıdır. Eyni zamanda kollektivlərdə monitorinqlərin və müxtəlif yoxlamaların keçirilməsi də müəyyən mənada profilaktik təsir göstərə bilər”.

Ekspert sosial şəbəkələrin təsirinə də diqqət çəkib: ”Bu gün gənclər əsasən sosial şəbəkələrdən istifadə edir. Təəssüf ki, bəzi hallarda narkotik istifadəsini təşviq edən və ya bu istiqamətdə təsir göstərən şəxslərin təsiri altına düşürlər. Hüquq-mühafizə orqanları bu istiqamətdə mübarizə aparsalar da, problem tam aradan qalxmayıb. Ona görə də sosial şəbəkələr üzərindən maarifləndirmə daha da gücləndirilməlidir. Tibb mütəxəssisləri, psixoloqlar və digər peşəkarlar gənclərlə işləməli, sosial media üzərindən onların dilində danışmalıdırlar. Televiziya və digər informasiya vasitələri də bu prosesdə fəal iştirak etməlidir”.

Sosioloqun sözlərinə görə, narkomaniya ilə mübarizə yalnız dövlət qurumlarının üzərinə düşən məsuliyyət deyil: ”Valideynlərin, məktəblərin, ictimai təşkilatların və dövlət qurumlarının birgə fəaliyyəti vacibdir. Ailələr övladlarına nəzarəti gücləndirməli, məktəblər və aidiyyəti qurumlar koordinasiyalı fəaliyyət göstərməlidir. Cəmiyyətdə narkotik istifadəsinə qarşı ictimai qınaq formalaşmalıdır. İnsanlar düşünməməlidirlər ki, narkomaniya onların ailəsinə aid deyil. Bu problem domino effekti yaradır və nəticədə bütün cəmiyyətə təsir göstərir. Buna görə də maarifləndirmə üsulları yenilənməli, hüquqi mübarizə mexanizmləri təkmilləşdirilməli, həm də qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməlidir”.

***Murad İbrahimli***

# Prezident onlara "general-mayor" ali hərbi rütbəsi verdi



***Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilib:

polkovnik Rəsul Rasim oğlu Əliyevə
polkovnik Elçin Rəhim oğlu Abdullayevə
polkovnik Azər Əfrayıl oğlu Heybətliyə
polkovnik Gülməmməd Tofiq oğlu Rzayevə
polkovnik Ruslan Dünyaməddin oğlu Ağasiyevə.

# Baş nazir sahibkarlıqla bağlı qərar verdi

***Nazirlər Kabineti "Dövlət orqanları (qurumları) tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə və onlara dəstək infrastrukturunu təşkil edən qurumlara, həmçinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin qiymətləndirilməsi Qaydaları"nı təsdiq edib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Qaydalar paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə və mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qeyri-kommersiya hüquqi şəxslərə tətbiq edilən dövlət dəstəyi mexanizmlərinə şamil edilmir.

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dəstəklərin səmərəliliyinin qiymətləndirilməsi qeyd olunan qurumların daxili qaydalarına uyğun olaraq aparılır.

# 108 illik tarix - Qalib Azərbaycan Ordusu

***Bu gün Azərbaycan Silahlı Qüvvələrinin yaranma günüdür.***

"Unikal"ın məlumatına görə, Azərbaycan Silahlı Qüvvələri Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 26 iyun 1918-ci il tarixli qərarı ilə Gəncədə yaradılıb.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ordu buraxılıb və 1991-ci il oktyabrın 9-da Ali Sovetin qərarı ilə Silahlı Qüvvələr yenidən yaradılıb.

Hazırda Azərbaycan həm döyüş qabiliyyətinə, həm də maddi-texniki imkanlarına görə, Cənubi Qafqazda ən güclü dövlət hesab olunur.

Silahlı Qüvvələrin strukturuna Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunları və Hərbi Dəniz Qüvvələri daxildir.

Artıq Azərbaycan xalqı Silahlı Qüvvələr gününü böyük sevinc və qürur hissi ilə qeyd edir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Azərbaycan torpaqlarını 30 ildən bəri işğal altında saxlamış Ermənistan silahlı qüvvələrini darmadağın edib. Əzəli və tarixi torpağımız olan Qarabağ düşmən işğalından azad olunub. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edilib.

# "Ermənistan mövcud imkanlardan istifadə etməlidir" - XİN

***25 iyunda Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, görüş zamanı Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, habelə regional gündəlikdə duran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər mövcud siyasi dialoqun, yüksək səviyyəli qarşılıqlı səfərlərin və intensiv təmasların Azərbaycan-Aİ münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıblar. Bu çərçivədə Avropa



İttifaqı Şurasının Prezidenti Antonio Koştanın cari ildə Azərbaycana həyata keçirdiyi səfərin qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və əməkdaşlıq gündəliyinin irəli aparılması baxımından əhəmiyyəti qeyd olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya və digər sahələr üzrə əməkdaşlığın cari vəziyyəti, habelə əldə edilmiş razılıqlar nəzərdən keçirilib.

Nazir müavini Elnur Məmmədov Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh gündəliyi üzrə son inkişaflar barədə qarşı tərəfi məlumatlandırıb. Sülh prosesinin yekunlaşdırılması üçün mövcud imkanlardan istifadə edilməsinin, öhdəliklərin vaxtında yerinə yetirilməsinin və qarşılıqlı etimadın gücləndirilməsinin vacibliyi qeyd olunub.

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, o cümlədən Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq və məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüş zamanı, həmçinin regional və beynəlxalq gündəlikdə yer alan digər aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# General rütbəsi verilən polkovniklər kimdir?



***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin imzaladığı sərəncamla beş nəfərə "general-mayor" ali hərbi rütbəsi verilib.***

"Unikal"ın məlumatına görə, "general-mayor" ali hərbi rütbəsi ilə təltif edilən polkovnik Azər Əfrayıl oğlu Heybətli Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edir.

O, Azərbaycan Ordusunda müxtəlif dövrlərdə yüksək vəzifələrdə çalışıb, Azərbaycanın Böyük Britaniyadakı attaşesi vəzifəsində də fəaliyyət göstərib.

"General-mayor" ali hərbi rütbəsi verilən digər polkovnik Elçin Rəhim oğlu Abdullayev Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsidir.

Ali hərbi rütbə alan Gülməmməd Tofiq oğlu Rzayev Vətən müharibəsi iştirakçısıdır. O, "Qarabağ" ordeni ilə təltif edilib.

# Bəzi publik hüquqi şəxslər büdcə təşkilatı statusuna keçirildi

***Prezident İlham Əliyev dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, Fərmana əsasən, Dövlət Ehtiyatları Agentliyi, Mədəniyyət Nazirliyinin tabeliyindəki Kino Agentliyi, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Balıqçılıq və Akvakultura Mərkəzi, Azərbaycan Elm Fondu, Minatəmizləmə Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, onun tabeliyindəki Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxs statusundan çıxarılaraq büdcə təşkilatı statusuna keçirilib.

Bundan başqa, Fərmanla İqtisadiyyat Nazirliyi Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxslərinin MMC-lərə çevrilmə yolu ilə yenidən təşkilini iki ay müddətində təmin etməli, Cəmiyyətlərin dövlət qeydiyyatına alınması üçün onların nizamnaməsi təsdiq edildikdən sonra 3 gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna uyğun olaraq tədbirlər görməli, Cəmiyyətlər dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində aidiyyəti üzrə əmlakın onların balansına verilməsi üçün müvafiq tədbirlər görməli, fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Bundan başqa, Nazirlər Kabineti "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi"nin strukturuna daxil olan "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin və Marionet Teatrının əsasında Mədəniyyət Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin və Marionet Teatrının yaradılmasını təmin etməli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi"nin tabeliyində MMC-nin yaradılmasını və Şuşa şəhəri, eləcə də Şuşa rayonu ərazisində tikilmiş çoxmənzilli binaların və fərdi yaşayış evlərinin idarə edilməsi, habelə həmin ərazidə abadlaşdırma, yaşıllaşdırma, işıqlandırma və mənzil-kommunal təsərrüfatı sahələrində funksiyalarının həmin cəmiyyət vasitəsilə həyata keçirilməsini təmin etməlidir.

Maliyyə Nazirliyi yeni qurumların fəaliyyətinin maliyyələşdirilməsini cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində təmin etməli, ölkə Prezidentinin "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 25 avqust 2025-ci il tarixli fərmanına uyğun olaraq, yaradılan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görməlidir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5Ş
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin Nizamnaməsi təsdiqləndi

***Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxsin Nizamnaməsi təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Nazirlər Kabineti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 6



# Azərbaycan BTİ-nin Şura və Komitəsinə namizədliyini irəli sürüb

***Bu il 9 - 27 noyabr tarixlərində Qətərdə Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) növbəti Səlahiyyətli Konfransının keçirilməsi nəzərdə tutulur. Dörd ildən bir təşkil olunan tədbirdə İttifaqın Baş katibi, Baş katibin müavini, büroların direktorları, o cümlədən qurumun Radio Tənzimləmə Komitəsinə və idarəedici orqanı olan Şuraya üzvlər seçilir.***

"Unikal" xəbər verir ki, Azərbaycan 2027 - 2030-cu illər üzrə BTİ Şurasına üzvlük üçün namizədliyini təqdim edib. Eyni zamanda AZCON Holding-in strukturuna daxil olan Azərbaycan Kosmik Agentliyinin (Azərkosmos) Radiotezliklərin idarəolunması şöbəsinin müdiri Sitarə Mehdiyevanın Radio Tənzimləmə Komitəsinin üzvlüyünə namizədliyi irəli sürülüb.




Ölkəmiz 2014, 2018 və 2022-ci illərdə keçirilmiş BTİ səlahiyyətli konfranslarında Şuraya üzv seçilib. Azərbaycanın Şurada təmsil olunması qurumun qərar qəbuletmə və idarəetmə proseslərində fəal iştirakına, milli maraqların müdafiəsinə və informasiya-kommunikasiya texnologiyaları sahəsində prioritetlərin təşviqinə mühüm töhfə verib.

Bununla yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi 2018 və 2022-ci illərdə ardıcıl olaraq Radio Tənzimləmə Komitəsinin üzvü seçilib.

BTİ Konstitusiyasına əsasən, Şuranın üzvləri Səlahiyyətli Konfrans tərəfindən ədalətli coğrafi bölgü prinsipi nəzərə alınmaqla seçilir. Radio Tənzimləmə Komitəsinin üzvləri isə təşkilata üzv dövlətlərin irəli sürdüyü namizədlər arasından müəyyən

# Milli Məclisin növbəti iclasında 14 məsələ müzakirə olunacaq

***Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclasının tarixi və gündəliyi açıqlanıb.***

"Unikal" xəbər verir ki, iyunun 30-da keçirilməsi nəzərdə tutulan iclasın gündəliyinə 14 məsələnin müzakirəsi daxil edilib.

Bu məsələlər aşağıdakılardır:

1. "Metrik Konvensiya"ya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).

8. "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).



10. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

# Hikmət Hacıyev Bakıda fransalı həmkarı ilə görüşdü



***Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakıda səfərdə olan fransalı həmkarı Bertrand Buxvalter ilə məhsuldar görüş keçirib.***

"Unikal" xəbər verir ki, Prezidentin köməkçisi bu barədə özünün X hesabında yazıb.

"Prezident İlham Əliyev və Prezident Emmanuel Makron arasında ötən ay baş tutan telefon danışığının ruhuna uyğun olaraq, Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin hazırkı vəziyyətini və perspektivlərini nəzərdən keçirdik. Həmçinin regional inkişaflar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi apardıq", - deyə diplomat qeyd edib.

# Ceyhun Bayramov polşalı həmkarı ilə görüşdü

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Polşanın Qdansk şəhərində keçirilən Ukraynanın Bərpası Konfransı çərçivəsində Polşanın xarici işlər naziri Radoslav Sikorski ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə XİN-in "X" hesabında bildirilib.

Tərəflər Azərbaycan-Polşa münasibətlərindəki müsbət dinamikanı alqışlayıb, ikitərəfli əlaqələrin möhkəmləndirilməsində müntəzəm siyasi dialoqun və yüksək səviyyəli qarşılıqlı səfərlərin vacibliyini vurğulayıblar.

Müzakirələr iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, ticarət və investisiya əlaqələrinin artırılması məsələlərinə həsr olunub.

Ceyhun Bayramov qarşı tərəfi münaqişədən sonrakı dövrdə regionda baş verənlər, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumatlandırıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran daha geniş regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanda şagirdlərin sayı açıqlandı



***Bu tədris ilində ölkədə 107 mindən çox uşaq dövlət məktəbəqədər təhsil müəssisələrində təhsil alıb.***

"Unikal" xəbər verir ki, bu Elm və Təhsil Nazirliyinin illik hesabatında deyilir.

Qeyd olunub ki, 2025-2026-cı tədris ilində ölkə üzrə 107 348 uşaq dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilə cəlb edilib.

Bildirilib ki, 2025-2026-cı tədris ili üzrə 131 396 uşaq birinci sinfi bitirib. 2025-2026-cı tədris ilində 86 432 uşaq ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarını bitirib

Eyni zamanda vurğulanıb ki, ölkədə 3946 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir. 2025-2026-cı tədris ilində müəllim heyəti 130 mindən, şagird sayı isə 1 600 000-dən çox olub.

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 7





## Əli Əsədov Həştərxan vilayətinin hökumət sədri ilə görüşdü

***İyunun 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Həştərxan vilayətinin vitse-qubernatoru və Hökumətinin sədri Denis Afanasyev ilə görüşüb.***

Nazirlər Kabinetindən "Unikal"a bildirilib ki, görüş zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının regionları, o cümlədən Həştərxan vilayəti arasında əməkdaşlığın yüksək səviyyədə olduğu məmnunluqla qeyd edilib.

Azərbaycan ilə Həştərxan vilayəti arasında iqtisadi-ticari və investisiya əlaqələrinin inkişafında müsbət dinamika xüsusi vurğulanıb, nəqliyyat, logistika, mədəni-humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi yüksək qiymətləndirilib.

Həştərxan vilayətinin Azərbaycanın işğaldan azad edilmiş Qubadlı rayonunda məktəbəqədər təhsil müəssisəsinin tikintisi layihəsini həyata keçirməsi xüsusi qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran sahələrdə Azərbaycan ilə Həştərxan vilayəti arasında əməkdaşlığın daha da gücləndirilməsi məsələlərinə toxunulub.

## "Kənd təsərrüfatının inkişafı yeni mərhələyə qədəm qoyub" - Nazir müavini

***"İqlim dəyişiklikləri fonunda kənd təsərrüfatının inkişafı yeni bir mərhələyə qədəm qoyub. Bu mərhələdə toxumçuluq sektorunun inkişafı xüsusi əhəmiyyət daşıyır".***



"Unikal" xəbər verir ki, bunu kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında deyib.

O bildirib ki, ərzaq təhlükəsizliyinin təmin olunması üçün yerli toxum istehsalının təşkili və onun genişləndirilməsi mühüm rol oynayır.

"Sertifikatlaşdırılmış toxumların etiketlərində toxum haqqında tam və ətraflı məlumatın əks olunması tələb olunur. Bu da toxum bazarının inkişafına və şəffaflığın artırılmasına xidmət edir. Bundan əlavə, qeydiyyatdankənar fəaliyyət göstərən şəxslər tərəfindən istifadə olunan və sınaq məqsədli toxumların ayrıca test edilməsinə imkan yaradılması da nəzərdə tutulur. Bu isə daha çevik və səmərəli toxum bazarının formalaşmasına töhfə verə bilər".

# "Əmlak reyestrinin formalaşdırılması əhəmiyyətli addımdır"

## Vüqar Oruc: "500 mindən çox sənədsiz evin qeydiyyata alınması mərhələli şəkildə həll olunmalıdır"



***Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin İdarə Heyətinin sədri Vüqar Oruc "Unikal"a müsahibə verib. O, sənədiz evlər məsələsinin həll edilməsi üçün əmlak amnistiyasının təklif olunmasından, həmin evlərin qiymətinin nə qədər ucuzlaşmasından, illərdir müzakirə olunan bu məsələnin həll edilməsi üçün xüsusi proqramın qəbul edilməsindən və s. məsələlərdən danışıb.***

***-Milli Məclisin ötən iclaslarının birində sənədsiz evlərlə bağlı məsələ müzakirə olundu. Bildirildi ki, hazırda Azərbaycanda 500 mindən çox sənədsiz ev var və bu məsələnin həlli ilə bağlı sistemli və kompleks islahat lazımdır. Bu məsələnin həlli üçün hansı addımlar atıla bilər?***

-Biz iki ildir ki, əmlak amnistiyasını təklif edirik. Bunun Milli Məclisdə səsləndirilməsi prosesin aktuallığının ictimaiyyətə çatdırılması baxımından olduqca vacibdir. Düşünürük ki, bu məsələ ölkə iqtisadiyyatına mühüm təsir etmək imkanlarına görə tez bir zamanda həll edilməlidir. 500 mindən çox sənədsiz evin qeydiyyata alınması mərhələli qaydada həll olunmalıdır. İlk növbədə təyinatı fərqli olan, yəni, kənd təsərrüfatı və digər təyinatlı torpaqlarda inşa olunan, lakin hüquqi baxımdan qanunauyğunluq məsələsində heç bir problem yaranmayan, Bakı şəhərinin memarlıq prinsiplərinə zidd olmayan, qanunvericiliyin müvafiq istiqamətlərdə tələblərinə uyğun şəkildə inşa edilən evlər qeydiyyata alınmalıdır. Onlar kənd təsərrüfatı təyinatlı statusdan yaşayış statusuna dəyişməlidir. Belə olan təqdirdə 10 minlərlə evin qeydiyyat problemi həll olunur. Bundan sonra bəzi istisnalar olmaq şərti ilə digər bütün sənədsiz evlər qeydiyyata alına bilər. Meşə zolağında, strateji obyektlərin, magistral yolların yaxınlığında, kommunikasiya xətlərinin üzərində və yüksək gərginlikli elektrik xətlərinin altında qanuna zidd şəkildə inşa olunan fərdi yaşayış evləri istisna olmaqla digər bütün yaşayış evləri, torpaq sahələri qeydiyyata alınmalıdır və sənəd verilməlidir. Bu proses mərhələli qaydada və təbii ki, böyük amnistiya prosesinin tərkib hissəsi olaraq həyata keçirilməlidir.

***-Alınan evin sənədinin olması vacib məsələdir. Bu baxımdan alış-satış zamanı sənədsiz evlərin qiyməti nə qədər ucuzlaşır?***

-Bəli, çox ciddi təsiri var. Əslində sənədsiz evin, yəni, Dövlət Əmlak Reyestri tərəfindən verilmiş çıxarışa malik olmayan evlərin satışı mümkün olmur. Bu baxımdan, onlar yalnız addan-ada etibarnamə ilə keçirilir ki, bu da əmlak sahibliyi məsuliyyəti yaratmır. Notariusda qeydiyyata alınmayan, reyestr tərəfindən çıxarış verilməyən evlər alqı-satqı subyekti ola bilməz. Bu baxımdan düşünürəm ki, mütləq sənədli evlərə müraciət olunmalıdır. Qiymətlər təqribən real bazar qiymətlərindən 20-25%, bəzi hallarda daha çox fərqlənir. Sənədsiz evləri daha çox maddi gücü kifayət qədər olmayan təbəqələr seçirlər. Bu da onunla bağlıdır ki, həmin evlər bazarda ucuz təklif olunur.

***-Deputat Türkiyənin "İmar Barış" proqramını nümunə göstərərək qardaş ölkədə 2018-ci ildə 7 milyondan çox sənədsiz evin dəyərinin 3%-i miqdarda ilkin rüsum ödəməklə çıxarış aldığını qeyd edib. Ölkəmizdə də bu məsələ rüsum ödənilməklə həll oluna bilərmi?***

-Evlərin sənədləşməsində dövlət büdcəsinə rüsum ödənilir. Düşünürəm ki, diqqət 3% rüsumda olmalı deyil. Sənədsiz evlər hüquqi yəqinləşmə prosesini keçdikdən, mülkiyyət hüququ sənədlərlə təmin edildikdən sonra bu evlərin ölkə iqtisadiyyatına verə biləcəyi töhfə əsas diqqət mərkəzində olmalıdır. Təbii ki, deputat fikirləri ilə burada çıxış yolu axtarır ki, bu problem həll olunsun. Müxtəlif təkliflər təşviq xarakteri daşıyır ki, bəlkə də dövlət qurumları artıq bu 3%-ə görə müəyyən addımlar atsın. Onsuz da vətəndaşlar müvafiq ödənişlər edərək sənədləşmə prosesini keçirlər. Bu, kifayətdir. Əlavə olaraq faiz məsələsini müəyyən etmək kifayət qədər məbləğin vətəndaşlardan tələb olunmasına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, daşınmaz əmlak qiymətləri yüksəkdir. Bu gün yüksək qiymətdə daşınmaz əmlakı olub, amma iş yerləri olmayan və yaxud aşağı əməkhaqqı alan kifayət qədər vətəndaşlarımız var. Sosial ədalət prinsipi imkan vermir ki, onlardan müvafiq qeydiyyat üçün böyük məbləğlər tələb olunsun. Bunlar yalnız rüsum ödəyə bilərlər. Sənədləşmə həyata keçiriləndən sonra həmin şəxslər və onların sahib olduqları daşınmaz əmlak ölkənin iqtisadi sisteminin tərkib hissəsi olacaq. Banklara müraciət edib kredit almaq və qiymətləndirmə prosesini həyata keçirmək imkanları olacaq. Həmin evlər sığortalanacaq, vergi ödəyəcəklər, alqı-satqını rəsmi qaydada həyata keçirə biləcəklər, vərəsəlik hüquqlarından istifadə imkanları olacaq və s. Hər bir addım atanda dövlət büdcəsinə müvafiq ödənişlər edəcəklər ki, bu da həmin 3%-dən artıq məbləği özündə ehtiva edir.

***-Bu istiqamətdə məsələlərin illərdir müzakirə olunduğunu nəzərə alsaq, xüsusi proqram qəbul edilə bilərmi?***

-Bəli, məncə artıq zəruridir. Mərhələli bir proqram qəbul olunmalı və həyata keçirilməsinə start verilməlidir. Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, müvafiq dövlət qurumları, həm də ictimaiyyət nümayəndələri ilə bu proqram müzakirəyə çıxarılmalı və təsdiq olunmalıdır ki, ölkə iqtisadiyyatı 500 mindən daha çox sənədsiz ev problemindən birmənalı şəkildə qurtulsun. Mənə elə gəlir ki, bunun üçün kifayət qədər imkanlar var. Bu prosesə start verilsə, ölkə iqtisadiyyatı bundan qazanar. Eyni zamanda vətəndaşlarımız mülkiyyət hüququndan istifadə etmiş olar.

***-Torpaq Məcəlləsinə təklif olunan yeni dəyişikliyə əsasən, daşınmaz əmlakın kadastr uçotu dövlət tərəfindən elektron sistemdə aparılacaq. Sizcə bu hansı üstünlüklər yaradacaq?***

-Bu, ilkin mərhələdir ki, bütün mülkiyyət və əmlak reyestri formalaşsın. İstəyimiz odur ki, bu proses davamlı olsun. Kadastr uçotuna alınan evlər bir müddətdən sonra, yuxarıda qeyd etdiyim kimi, əgər hər hansı bir hüquqi problem yoxdursa, qanuna zidd şəkildə inşa olunmayıbsa, müəyyən amnistiya qərarları ilə reyestrə daxil edilsin. Kadastr obyektin harada yerləşməsini, reyestr isə onun hüquqlarının müəyyən edilməsini özündə ehtiva edir. Düşünürəm ki, kadastrla reyestr bərabər olsa, yəni, təkcə bütün əmlak məlumatları kadastrdan yığılaraq əmlak reyestrinə keçirilməsə, ölkəmiz bundan qazanmaz. Ona görə düşünürəm ki, bir müddətdən sonra kadastr məlumatları toplanıb mərhələli qaydada reyestrə daxil edilməlidir.

***Anar Kəlbiyev***

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 8



# Monopolistlər yenidən hədəfdə

## Bəzi məhsulların kəskin bahalaşması yalnız dünya bazarlarındakı qiymət artımı ilə bağlı deyil - Narahatlıq dolu təfərrüatlar...



***Azərbaycanda bitki yağlarının qiymətində ciddi artım var. Ötən illə müqayisədə günəbaxan yağının 1 litrinin orta qiyməti 4,53 manatdan 4,96 manata yüksəlib.***

Qarğıdalı yağında orta qiymət 6,02 manatdan 6,46 manata qalxıb. Zeytun yağının 1 litrinin orta qiyməti isə 17,71 manatdan 18,12 manata yüksəlib.

Qeyd edək ki, Azərbaycana növündən asılı olaraq bir neçə tədarükçü ölkədən bitki yağı gətirilir. Günəbaxan yağı üzrə idxal əsasən Rusiyadandır. Soya yağı üzrə isə əsas tədarükçü Argentinadır. 2025-ci ildə Azərbaycana idxal olunan 169 min ton soya yağının təxminən 128,5 min tonu Argentinadan gəlib.

Türkiyədən Azərbaycana günəbaxan, qarğıdalı və zeytun yağları idxal olunur. 2025-ci ildə bu məhsullar üzrə idxalın dəyəri təxminən 2,25 milyon ABŞ dolları olub. Türkiyənin payı daha çox qablaşdırılmış və markalı istehlak yağlarındadır.

Bəs Azərbaycanda bitki yağlarının bahalaşmasına səbəb nədir?

İqtisadçı-ekspert Elçin Əsədullayev mövzu ilə bağlı Bizim.Media-ya bildirib ki, ümumiyyətlə bitki yağları dünyanın hər yerində bahalaşmağa ən tez məruz qalan məhsullardandır: "Müşahidələr göstərir ki, hətta digər ərzaq məhsullarının qiymətində cüzi artım olanda hər kərə, həm bitki yağlarında qiymətdə daha çox yüksəlmə olur. Bunun da əsas səbəbi odur ki, bu məhsullar üzrə yerli istehsal azdır, ölkədə istehsal kimi görünən məhsulun bir hissəsi əslində idxal edilmiş xammalın emalından, yaxud qablaşdırılmasından ibarətdir. Bitki yağına olan tələbat daha çox idxaldan asılıdır, ona görə də yağ idxal etdiyimiz ölkələrdə qiymət artımları belə vəziyyətə gətirib çıxarır".

İnsafən qeyd etmək lazımdır ki, dünya bazarında bitki yağlarının qiymətləri 2022-ci ildən bu yana ən yüksək səviyyəyə yüksəlib. Dünya Bankının məlumatlarından belə aydın olur ki, bu ilin may ayında günəbaxan, raps və soya yağının orta dünya birja qiymətləri son illərin maksimum göstəricilərinə çatıb (Marja.az).

May ayında günəbaxan yağının orta qiyməti aprel ayı ilə müqayisədə 1,3% artaraq ton üçün 1505 dollar təşkil edib. Beləliklə, günəbaxan yağının qiyməti 2022-ci ilin iyulundan bəri ən yüksək səviyyəyə çatıb. Həmin vaxt bu məhsulun qiyməti ton üçün 1556,87 dollar olmuşdu.

Raps yağının qiyməti isə aprel ayı ilə müqayisədə mayda 8,7% artaraq ton üçün 1472,53 dollara çatıb. Bu göstərici 2022-ci ilin avqustundan bəri maksimum səviyyədir. 2022-ci ilin avqustunda raps yağının orta qiyməti ton üçün 1638,85 dollar təşkil etmişdi.

Soya yağının qiyməti də may ayında kəskin bahalaşıb. Bu məhsulun dəyəri əvvəlki ayla müqayisədə 7,4% artaraq ton üçün 1775,26 dollar olub. Nəticədə soya yağının qiyməti 2022-ci ilin mayından bəri ən yüksək həddə çatıb. Həmin dövrdə soya yağının qiyməti ton üçün 1 962,88 dollar idi.

Lakin Azərbaycanda bitki yağlarının qiymətindəki artımı sadəcə dünya bazarındakı bahalaşma ilə əlaqələndirməyənlər də var. Hələ bir müddət öncə iqtisadçı ekspert Natiq Cəfərli yağ idxalındakı monopolizmə diqqət çəkmişdi. "Rəqabət yoxdur, ölkəyə yağ gətirən şirkət sayı azdır, yerli istehsal isə yox dərəcəsindədir... Rəqabət olmayan yerdə qiyməti diktə etmək çox asandır, bizdə antiinhisar qurumları topdan yox, pərakəndə satanlarla guya "mübarizə" aparırlar, hələ orda da vəziyyət başqadır - iri holdinqlərə məxsus marketlər şəbəkəsinə dəymirlər, dəyə bilmirlər, arada gedib məhəllədəki kiçik dükanı olan Mamed dayıya ilişirlər" - deyə o bildirmişdi.

Yeri gəlmişkən, müxtəlif mütəxəssislərin fikrincə Azərbaycandakı bitki yağları ilə bağlı iki ciddi problem var. Hazırda ölkə daxilində istehsal olunan qarğıdalı, günəbaxan və digər bitki yağlarının qiyməti həm baha, həm də keyfiyyət baxımından çox zəifdir. Bunlardan bir dəfə alan istehlakçı növbəti dəfə başqa yağ məhsulu almağa üstünlük verir.

Digər tərəfdən, ölkəyə idxal edilən bitki yağlarının keyfiyyəti də müzakirə və mübahisə mövzusudur. Ekspertlər bitki yağını seçərkən bəzi göstəricilərə fikir verməyi məsləhət görürlər. Yemək bişirmək üçün rafinə edilmiş, salatlar üçün isə rafinə edilməmiş yağdan istifadə edin. Rafinə edilməmiş yağı qızdırmaq olmaz, bu zaman ziyanlı maddələr ifraz olunur.

Bitki yağı işıq sevmir və işığın təsirindən tez xarab olur. Bu səbəbdən bitki yağını alanda marketdəki rəfin dərinliyində yerləşən yağı götürün. Daha təzə yağ seçin. Yararlılıq müddəti bitənə yaxın yağın keyfiyyəti azalır. Rafinə olunmuş bitki yağı şəffaf və açıq sarı rəngdə olmalıdır. Yağın rəngi nə qədər açıqdırsa, yağ da bir o qədər yaxşı sayılır.

KİV-də yazılanlara görə, bəzən bitki yağlarının üzərində "E vitamini ilə", "tərkibində E vitamini var" və s. kimi qeydlər olur. Bu, sadəcə reklam hiyləsidir. İstənilən bitki yağında bu faydalı və vacib vitamin mövcuddur. Yağın üzərində «xolesterinsiz» yazılıbsa, bu da sadəcə reklam üçündür. Buna aldanmayın və artıq pul ödməyin! Heç bir bitki yağında xolesterin yoxdur və ola da bilməz. Növbəti reklam hiyləsi bitki yağının üzərində "konservantsız" qeydinin olmasıdır.

Beləliklə, Azərbaycanda satılan bitki yağları ilə bağlı istehlakçıları düşündürən yalnız qiymətlərdəki bahalaşma deyil, həm də keyfiyyətdəki problemlərdir. Hər bir halda əlaqədar qurumların bu mövzuya diqqət yetirməsi vacibdir, çünki söhbət yalnız bu günkü deyil, həm də gələcək nəsillərin sağlamlığına təhdidlərdən gedir...

***Sənan Mirzə***



# Azərbaycanda hərbçilərin şəxsi jetonu olacaq

***Qanunverciliyə "hərbi qulluqçuların şəxsi jetonu" anlayışı daxil edilib.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, şəxsi jeton həlak olmuş, ölmüş, xəsarət (yaralanma, travma, kontuziya) almış hərbi qulluqçuların şəxsiyyətini müəyyən etmək üçün istifadə edilən, fərdi identifikasiya nömrəsini və qan qrupunu özündə əks etdirən nişandır.

Hərbi qulluqçular hərbi xidmət keçdikləri dövlət orqanları (dövlət orqanının strukturuna daxil olan qurumlar) tərəfindən şəxsi jetonla təmin edilirlər.

Hərbi qulluqçuların şəxsi jetonla təmin edilməsi, həmçinin şəxsi jetonun təsviri, xüsusiyyətləri və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

# MTN generalı azadlığa çıxdı



***Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəisi işləmiş general Elçin Quliyev uzunmüddətli həbsdən sonra azadlığa çıxıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, general 10 il 6 aylıq həbs müddətini gün-gün başa vurub.

O, cəzasını sona qədər 9 saylı cəzaçəkmə müəssisəsində, ciddi rejim şəraitində çəkib.

Qeyd edək ki, MTN-in vaxtlarında yüksək vəzifələrdə çalışan E.Quliyev 2015-ci ildə həbs edilib. O, rüşvət alma, hədə-qorxu ilə tələb etmə, quldurluq, qanunsuz azadlıqdan məhrumetmə və başqa ağır cinayətlərdə təqsirli bilinib.

# 73 mindən çox müəllimin əməkhaqqına əlavələr edilib

***Azərbaycanda 2025-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsi üzrə ümumilikdə 65 565 elektron müraciət qəbul edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin illik hesabatında qeyd edilib.

Bildirilib ki, 3416 namizəd müsabiqədə uğur qazanaraq işlə təmin olunub. Bu il MİQ nəticəsində əsas fənlər üzrə vakant yerlərin tutulma göstəricisi 90 faizdən çox olub. 10 minə yaxın müəllim tədris ili ərzində işə qəbul edilib.

Vurğulanıb ki, indiyədək keçirilmiş sertifikatlaşdırma prosesinə 84 minə yaxın təhsilverən cəlb olunub. Sertifikatlaşdırmanın nəticəsinə əsasən ümumilikdə 73 mindən çox təhsilverənin əməkhaqqına əlavələr edilib.

Qeyd olunub ki, müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsində 2022 nəfər uğur qazanaraq iş yerini dəyişdirib. Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi prosesində isə 150 nəfər iş yerini qarşılıqlı dəyişdirib.

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 9





## Prezident şəhid hərbçiləri təltif etdi - SİYAHI

***Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Əliyev Asiman Vaqif oğlu - mayor
Əsgərov Samid Gülmalı oğlu - kapitan
Seymur Hüseyn oğlu - baş leytenant
Bəşirov Hakim Nizam oğlu - leytenant
Qorçuyev Anar Nadir oğlu - leytenant
Məcidov Rafiq Rasim oğlu - gizir

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Hüseynov Nazim Yaqub oğlu - mayor
Zeynalov Azad Rafiq oğlu - kapitan
Gülüşov Tərlan Salman oğlu - baş leytenant
Səfərli Cavid Xaliq oğlu - baş leytenant
Vəlizadə İbrahim Səməd oğlu - leytenant
Abbasov İntiqam Yavər oğlu - baş gizir
Məmmədov Kənan Hüseyn oğlu - gizir
Rüstəmov Vüsal Valeh oğlu - gizir

## Doktorantura və dissertantura üzrə imtahan keçirilib

***Bu gün doktorantura və dissertantura səviyyəsində xarici dildən qəbul imtahanı və fəlsəfə doktoru imtahanı keçirilib.***



"Unikal" xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb.

İmtahan Bakı və Naxçıvan şəhərlərində təşkil olunub. İmtahanda iştirakçılara xarici dilə yiyələnmə səviyyəsini yoxlayıb-qiymətləndirmək üçün oxuyub-anlama, dinləyib-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı bloku (esse yazısı) üzrə tapşırıqlar təqdim olunub.

İmtahan nəticələri danışıq bloku və yazılı tapşırıqların yoxlanılması prosesi başa çatdıqdan sonra 4 həftə ərzində elan olunacaq.

## "İntellektual gömrük" informasiya sistemi yaradıldı

***Azərbaycanda "İntellektual gömrük" informasiya sistemi yaradılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, "İntellektual gömrük" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilib.

Fərmanla müəyyən edilib ki, İGİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir.

# Məmurların rayonlardakı milyonluq villalarına böyük təhlükə

### Bölgələrdəki saray kimi mülklərin sahibləri kimlərdir? - Bu mülkləri gözləyən aqibətin və Bakıdan geri qalmayan qiymətlərin pərdəarxası...

***Bakıdan kənarda ən bahalı yaşayış evləri əsasən turizm potensialı yüksək olan Qəbələ, Quba, İsmayıllı, Lənkəran və Şəki rayonlarında yerləşir. Bu bölgələrdə evlərin qiyməti təkcə yaşayış məqsədilə deyil, həm də investisiya və günlük kirayə bazarına olan yüksək tələbat səbəbindən formalaşır.***

Ən bahalı rayonlardan biri Qəbələdir. Milli.az-ın araşdırmasına görə, burada 120-150 kvadratmetr sahəsi olan həyət evləri 120 min manatdan başlayaraq 220 min manata qədər yüksəlir. Yeni tikilmiş və müasir təchizatlı villaların qiyməti isə adətən 240-565 min manat arasında dəyişir.



Premium seqmentdə yer alan bəzi villaların qiyməti milyon manatı ötür. Bu evlər əsasən 5-7 otaqdan ibarət olur, 5-10 sot torpaq sahəsində yerləşir və hovuz, mərkəzi istilik sistemi, isti döşəmə, geniş bağ sahəsi və dağ mənzərəsi kimi üstünlüklərə malikdir.

Quba rayonunun Şahdağ turizm kompleksi ətrafında yerləşən evlər də ölkənin ən bahalı rayon əmlakları sırasındadır. Burada villaların qiyməti əsasən 180-400 min manat arasında dəyişsə də, dağ mənzərəli və premium təmirli evlərin qiyməti 500-900 min manata qədər yüksələ bilir. Bu ərazilərdəki evlərin əsas üstünlüyü turizm mərkəzinə yaxınlıq, qış və yay mövsümlərində yüksək kirayə gəliri əldə etmək imkanı və təbii landşaftdır.

İsmayıllı rayonunda, xüsusilə Lahıc və dağətəyi kəndlərdə yerləşən evlər də yüksək qiymətlərlə təklif olunur. Burada həyət evləri adətən 100-250 min manat, müasir villalar isə 300-500 min manat arasında satılır. Bu əmlaklar geniş torpaq sahələri, meşə və dağ mənzərələri, bağlar və istirahət üçün əlverişli mühit ilə seçilir.

Lənkəran rayonunda dənizkənarı və istirahət zonalarında yerləşən villalar ən bahalı əmlaklar hesab olunur. Orta qiymətlər 80-250 min manat arasında dəyişsə də, elit villaların qiyməti 500 min manatdan başlayaraq 1 milyon manata qədər yüksələ bilir. Bu evlər böyük həyət sahələri, hovuzlar, müasir təmir və dənizə yaxın yerləşmə xüsusiyyətləri ilə fərqlənir.

Şəki rayonunda isə tarixi mərkəzə və turistik zonalara yaxın ərazilərdə yerləşən evlər daha yüksək qiymətə satılır. Burada həyət evlərinin qiyməti əsasən 80-200 min manat arasında dəyişir, böyük və müasir villalar isə 250-350 min manata qədər yüksəlir. Bu evlər geniş həyətləri, bağ sahələri və turistlər üçün cəlbedici yerləşməsi ilə diqqət çəkir.

Ümumilikdə, 2026-cı ilin iyun ayına olan vəziyyətə görə rayonlar üzrə ən bahalı evlər Qusarın Şahdağ zonasında, Qəbələdə və Lənkəranın prestijli ərazilərində satılır. Bu bölgələrdə premium villaların qiyməti 500 min manatdan başlayaraq bəzi hallarda 1 milyon manatı keçir. Ən yüksək qiymətlər isə adətən hovuzlu, geniş torpaq sahəsinə malik, dağ və ya dəniz mənzərəli, turistlər üçün gəlir gətirə bilən evlərdə müşahidə olunur.

"Unikal"a danışan adının çəkilməsini istəməyən əmlak eksperti isə bölgələrdə iri məmurlara məxsus çox sayda mülkün varlığından bəhs edib və həmin dəbdəbəli villaların dəyərinin bəzən bir neçə milyon manatla ölçüldüyünü bildirib. "Üstəlik, belə mülklər bir çox hallarda kənd təsərrüfatı məqsədli dövlət torpaqlarında tikilib. Bir çox rayonlarda minlərlə hektar torpaq sahəsinin kimlər tərəfindənsə hasarlandığı hər kəsə məlumdur. Bu cür torpaqların əsasən iri məmurlara, eks-məmurlara, oliqarxlara məxsus olduğundan media dəfələrlə yazıb. Söhbət Göygöl, Qəbələ, Xaçmaz, Quba, Qusar, Şamaxı, Xızı, İsmayıllı, Qax kimi rayonlardan gedir" deyə həmsöhbətimiz bildirib.

Turizm baxımından əlverişli, təbii gözəllikləri ilə göz oxşayan bölgələrin xeyli dərəcədə məmur-oliqarx nəzarətində olduğunu deyən ekspert əlavə edib ki, illərdir hasarlanıb becərilməyən kənd təsərrüfatı təyinatlı iri torpaq sahələrinin şəxsi mülkiyyətdə saxlanılması bölgələrdə heyvandarlığın, əkinçiliyin, meyvəçiliyin zəifləməsinə gətirib çıxarır.

Ötən il "modern.az" saytı yazmışdı ki, rayonlardakı bahalı villaların bir qisminin eks-nazirlərin mülkiyyətində olduğu deyilir. Bildirilir ki, son vaxtlar həmin şəxslər milyonlarla manat dəyərində olan bu villaları "satıb canlarını qurtamaq" istəyirlər. İddialara görə, məsələn, dəyəri 20-30 milyon manat olan belə torpaqlar, üzərində tikilmiş bahalı malikanə ilə yarı qiymətinə satışa çıxarılsa da, heç kim onlara yaxın durmağa cürət etmir.

"Unikal"a danışan ekspert bunun səbəbini qanunsuz zəbt edilən torpaqların kənd təsərrüfatının inkişafına cəlb edilməsi istiqamətində dövlətin atdığı addımlarla əsaslandırır. "Hələ üç il əvvəl on hektarlarla sahədə tikilən villaların xəritəsinin hazırlandığı bildirilirdi. Ölkə başçısı da öz çıxışlarının birində əfsusla vurğulamışdı ki, "əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var". Dövlət həmin pozuntuları aradan qaldırmaq istiqamətində işlər görür, belədə isə bəzi indiki və keçmiş məmurların, oliqarxların rayonlardakı torpaq istilasına son qoyulması qaçılmazdır. Bu zaman onlar, yəqin ki, özlərinin milyonluq villalarını da itirəcəklər" deyə həmsöhbətimiz fikirlərini yekunlaşdırıb.

***Toğrul Əliyev***

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 10



# Bakı çimərliklərində heyrətamiz bahalaşma

## Qiymətlər son 2 ildə 20-60 faiz aralığında yüksəlib, indi hətta 300 manatadək artan paketlər mövcuddur - İlginc rəqəmlər!



***Abşeron çimərliklərində iyundan mövsüm başlayıb. Artıq indidən qiymətlər və VIP paketlər mübahisə mövzusudur.***

Belə ki, paytaxtın sahilboyu zolağında çimərlik klublarında giriş və xidmət qiymətləri əsasən 30-80 manat aralığında dəyişir, premium zonalarda isə daha yüksək paketlər tətbiq edilir.

"Yeni Sabah"ın yazdığına görə, "Amburan Beach Club" - bu yay mövsümündə qiymət siyasətini sabit saxlayaraq daha çox ailə paketləri və komfort zonalarına fokuslanıb. Burada premium xidmətlərin əsas üstünlüyü geniş infrastruktur və fərdi zonaların mövcudluğudur.

Giriş qiymətləri həftəiçi 30-40 manat, həftəsonu və bayram günlərində isə 40-50 manat arasında müəyyən edilib. 18 yaşdan kiçik övladları ilə gələn valideynlər üçün xüsusi tariflər tətbiq olunur, 9 yaşadək uşaqların girişi isə ödənişsizdir. Qiymətə şezlonq, çətir, dəsmal, duş, uşaq otağı və əyləncə proqramı daxildir, şkaf icarəsi isə 5 + 10 manat depozit təşkil edir.

"Dream Beach Baku" - ərazisində giriş bir çox hallarda sərbəst olsa da, şezlonq və kabana xidmətləri 35-60 manat aralığında dəyişir. DJ və tədbir günlərində qiymətlərin artması müşahidə olunur.

"Glam Beach Baku" isə "glamping" və çimərlik konseptini birləşdirən model ilə seçilir. Burada şezlonqlar 10, kölgəliklər 15-30, VIP paketlər isə 300 manata qədər yüksəlir.

"Dalğa Beach" məkanında giriş qiymətləri 15-30 manat aralığındadır. Həftəsonu artan tələbat fonunda paket qiymətlərində yüksəliş qeydə alınır.

"Casablanca Beach" isə 20-40 manat aralığında stabil orta seqment məkan kimi mövqeyini qoruyur və ailə yönümlü xidmətləri ilə seçilir.

"My Beach" ən münasib qiymət siyasəti ilə fərqlənir. Burada giriş və paketlər 10-25 manat aralığında dəyişir və daha çox sadə istirahət axtaran ziyarətçilərin seçimi olur.

"Green Junkie Beach" isə gənclər və event yönümlü auditoriyaya xitab edir. DJ tədbirləri və xüsusi günlərdə qiymətlər ayrıca formalaşdırılır, giriş isə 15-35 manat intervalındadır.

Çimərlik sektorunda üç əsas qiymət kateqoriyası formalaşıb:

Premium seqment: 40-80 manat (VIP zonalarda daha yüksək)

Orta seqment: 20-50

Büdcə seqmenti: 10-25

(Vacib qeyd: Onu da deyək ki, qiymətlər mövsüm ərzində, ələlxüsus da həftəsonları və bayramlar, hər hansı xüsusi tədbirlər zamanı dəyişə bilər. Buna görə də istirahətə yollanmadan əvvəl çimərliklə əlaqə saxlayaraq son qiymətləri dəqiqləşdirmək tövsiyə olunur).

Son 2 ildə Abşeron çimərliklərində qiymətlər ümumilikdə 20-60% aralığında artıb, ən böyük yüksəliş VIP kabana və event zonalarında qeydə alınıb. Premium məkanlarda (Amburan, Bilgəh) artım daha çox xidmət və paketlərin genişlənməsi ilə bağlıdır, orta seqmentdə isə nisbətən sabitlik qorunur. Ümumilikdə bazar "sadə giriş" modelindən "paket və xidmət əsaslı qiymətləndirmə" sisteminə keçid edir.

Çimərlik mövsümünün rəsmi açılması da qiymətlərin aktivləşməsinə və bəzi məkanlarda artım tendensiyasının sürətlənməsinə səbəb olub. Mövsümün başlanması ilə yanaşı tələbatın artması qiymət siyasətinə birbaşa təsir göstərib.

Qeyd edək ki, ötən illə müqayisədə çimərliklərin qiymətləri nəzərəçarpacaq dərəcədə artıb. Bəzi ekspertlər, məsələn, Xalid Kərimli bunu Azərbaycanda çimərlik mövsümünün qısa olması sahibkarların xərclərinin artmasına və qiymətlərin yüksəlməsinə təsir göstərir: "Məsələn, biz tez-tez Misir və Türkiyə ilə qiymət müqayisəsi aparırıq. Türkiyədə çimərlik mövsümü mayın əvvəlində başlayır, oktyabrın əvvəlində başa çatır. Beləliklə, təxminən altı aylıq aktiv mövsüm formalaşır. Bu da qiymətlərin daha optimal səviyyədə müəyyənləşdirilməsinə imkan verir. Bir halda gəlir iki ay ərzində əldə edirsən, digər halda isə altı ay ərzində. Sahə gəlirli olduğundan daha çox sahibkar bazara daxil olur, rəqabət güclənir və qiymətlər optimallaşır. Azərbaycanda isə sahibkarlar illik xərclərini iki-üç ay ərzində qarşılamağa çalışdıqları üçün qiymətlər yüksəlir".

Digər səbəb olaraq isə Bakıda çimərliklərin azlığı və rəqabətin olmaması göstərilir. Çünki rəqabət qiymətlərin optimallaşmasına, xidmət keyfiyyətinin isə yüksəlməsinə təsir edən başlıca amildir.

Hər bir halda orta statistik azərbaycanlılar üçün yuxarıdakı qiymətlərlə hər həftə sonu ailəlikcə çimərliyə getmək ciddi xərc deməkdir. Elə bu səbəbdən də inandırıcı deyil ki, ailələr pullu çimərliklərdən müntəzəm olaraq istifadə etsinlər.

***Sənan Mirzə***

# "Kənddən Şəhərə" yarmarkasına qeydiyyat başladı




***27-28 iyun tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar tədarük və təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda "Kənddən Şəhərə" Mövsüm yarmarkası keçiriləcək.***

"Unikal" xəbər verir ki, Azərbaycanın müxtəlif bölgələrindən olan fermerlər təsərrüfatlarında yetişdirdikləri məhsulları Mövsüm yarmarkasında satışa çıxara biləcəklər.

Tədbirdə ölkənin müxtəlif bölgələrindən 20-ə yaxın regiondan , 40-a yaxın fermer iştirak edəcək. Fermerlər 100-ə yaxın çeşiddə və 10 tona yaxın kənd təsərrüfatı və qida məhsulunu şəhər sakinlərinə birbaşa təqdim edəcəklər.

Fermerlər yarmarkada iştirak üçün yer, piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunacaqlar.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının çıxışı, Atatürk parkının qarşısı) ünvanında təşkil olunacaq yarmarka 2 gün müddətində fasiləsiz davam edəcək. İştirak etmək istəyən fermerlər 26.06.2026-cı il tarixinədək 050 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya, eləcə də "Aqrar tədarük və təchizat" ASC və "Kənddən Şəhərə" yarmarkasının sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər.

Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.

Qeyd edək ki, yarmarkada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı sualı yaranacaq vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsuldan analiz verə biləcəklər.

# Toxumçuluq sahəsində Reyestr yaradılacaq

***"Toxumçuluq haqqında" yeni qanun layihəsi hazırlanıb.***

"Unikal" xəbər verir ki, qanun layihəsi Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

Qanun layihəsi 6 fəsildən, 27 maddədən ibarətdir. Layihəyə əsasən, seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi ( Reyestr) yaradılacaq. Reyestr seleksiya nailiyyətləri (sortlar və hibridlər, cinslər), qeydiyyata alınmış toxum əməliyyatçıları, seleksiya nailiyyətlərindən istifadə ilə əlaqədar bağlanmış müqavilələr və toxumluq əkinlər barədə məlumatların (qeydlərin) məcmusudur. Elektronlaşma nəticəsində aidiyyəti şəxslərin sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatı olan toxumlar, habelə onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumat almalarına şərait yaradacaq.

Toxumçuluq haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanılan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə həmin orqanın (qurumun) hesabına köçürüləcək. Müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.

Qeyd edək ki, yeni qanun qüvvəyə mindiyi gündən "Toxumçuluq haqqında" 1997-ci il 11 mart tarixli 257-IQ nömrəli qanun ləğv ediləcək. Bu Qanun qüvvəyə minənədək toxum istehsalçılarına toxumçuluq fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş şəhadətnamələr həmin şəhadətnamədə göstərilən müddətdə öz hüquqi qüvvəsini saxlayacaq.

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 11






## Şuşanın Sarıbaba kəndində 82 ha ərazi minadan təmizlənib

***Şuşa rayonunun Sarıbaba kəndinin yenidən qurulması ilə bağlı ərazinin minadan təmizlənməsi layihəsi çərçivəsində 82 ha ərazi təmizlənib, 14 ədəd partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb.

Qeyd edilib ki, Şuşa rayonu Sarıbaba kəndi - Qarabağın dağlıq hissəsində, təxminən 1500 metr yüksəklikdə yerləşən yaşayış məntəqəsidir. Ərazi uzun müddət hərbi nəzarət zonası olub və bu istiqamətdə döyüşlər aparılıb.

"Kənd ərazisində aparılan texniki tədqiqat əməliyyatları nəticəsində ərazi döyüş sahəsinin təmizlənməsi kimi qiymətləndirilib. Döyüş sahəsinin təmizlənməsi əməliyyatları yerüstü və yeraltı təmizləmə üsulları ilə həyata keçirilir. Ərazidəki dik yamaclar və meşəlik sahələr partlayıcı sursatların vizual aşkarlanmasını çətinləşdirən amillərdəndir. Bundan əlavə, dağlıq ərazilərdə tez-tez və gözlənilmədən dəyişən hava şəraiti və temperatur fərqləri minaaxtaranların fəaliyyətini daha da mürəkkəbləşdirir", - məlumatda vurğulanıb.

## 2025-ci ildə Astarada Dövlət qulluqçularının sayı və onların əməkhaqqı barədə statistika




***"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan ötən dövr ərzində dövlət qulluğu sahəsində geniş qanunvericilik bazası yaradılmış, həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanda müasir dövlət qulluğu sistemi formalaşmış, dövlət qulluqçularının peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə zəruri addımlar atılmışdır.***

2026-cı il yanvarın 1-nə Astara rayonunda dövlət qulluqçularının sayı 99 nəfər olmuşdur ki, onların da 21,2 faizini qadınlar təşkil edir. Dövlət qulluqçularının 3,0 faizi dövlət orqanlarında inzibati vəzifələrin 4-cü təsnifatı, 1,0 faizi 5-ci təsnifatı, 8,1 faizi 6-cı təsnifatı, 75,8 faizi 7-ci təsnifatı, 12,1 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir.

Dövlət qulluqçularının 5,1 faizi 1 ilədək, 22,2 faizi 1 ildən 5 ilədək, 33,3 faizi 5 ildən 10 ilədək, 14,1 faizi 10 ildən 15 ilədək, 25,3 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Dövlət qulluqçularının 1,0 faizini 25 yaşadək, 13,1 faizini 25-29 yaşda, 21,2 faizini 30-34 yaşda, 4,0 faizini 35-39 yaşda, 13,1 faizini 40-44 yaşda, 11,1 faizini 45-49 yaşda, 5,1 faizini 50-54 yaşda, 11,1 faizini 55-59 yaşda, 16,2 faizini 60-64 yaşda, 4,1 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

2025-ci ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 5,4 faiz artaraq 1448,3 manat təşkil etmişdir.

***Astara Rayon Statistika İdarəsi***

# Adı sabiq icra başçısı ilə hallanan şirkətə böyük şok

### Başı qalmaqallardan açılmayan "Vesta Construction"a nəhayət ki, cinayət işi açıldı - Bundan sonra nə olacaq?




***Vətəndaş Tahir Xudiyev iddia edib ki, 2016-cı ildə ona məxsus əmlak sökülərkən yerində tikiləcək yeni yaşayış binasından mənzil, ofis və parklanma yeri veriləcəyi vəd olunsa da, bu öhdəliklər yerinə yetirilmir.***

T.Xudiyev məsələ ilə bağlı deyib: "2016-cı ildə bizimlə görüşdülər və ərazidəki tikilinin söküləcəyini dedilər. Bunun bir dövlət layihəsi olduğunu bildirərək bizimlə müqavilə imzaladılar. Müqaviləyə əsasən, dövlətin pilot layihəsi olduğu üçün biz iki ildən sonra həmin binaya köçməli idik" (Baku TV).

Məsələ ilə bağlı Nizami Rayon İcra Hakimiyyətindən bildirilib ki, 2016-cı ildə pilot layihə çərçivəsində "Vesta Construction" MMC tərəfindən müvafiq icazəverici sənədlər əsasında Şirin Mirzəyev və Mehdi Abbasov küçələrinin kəsişməsində, 2535-ci məhəllədə çoxmənzilli yaşayış binalarının inşasına başlanılıb və vətəndaşlarla fərdi qaydada, qarşılıqlı razılaşma əsasında müqavilələr imzalanıb. Lakin şirkət ötən müddət ərzində öhdəliklərini yerinə yetirməyib.

Sözügedən məsələ ilə bağlı qeyd edilib ki, MMC və Tahir Xudiyev arasında notarial qaydada razılaşma əldə olunub. Dəfələrlə vətəndaş və şirkət rəhbərliyi ilə məsələnin həlli istiqamətində görüşlər keçirilsə də, heç bir nəticə əldə olunmayıb.

Vətəndaşa tikinti şirkəti tərəfindən müqavilə öhdəliklərinin yerinə yetirilməməsi ilə bağlı məhkəmə orqanına müraciət etmək hüququnun olduğu dəfələrlə izah olunsa da bu addımı atmayıb.

"Vesta Construction" MMC-nin tikinti işlərini tamamlamaması və yol verdiyi digər qanunsuzluq faktları ilə bağlı Rayon Prokurorluğu tərəfindən cinayət işi açılıb və istintaq hələ də davam edir. Nizami Rayon İcra Hakimiyyəti həmçinin məsələnin nəzarətdə saxlanıldığını vurğulayıb.

Qeyd edək ki, sözügedən şirkətin adı Nizami rayonunun sabiq icra başçısı Arif Qasımovla birgə də hallanıb.

Hələ 2019-cu ildə məlumat yayılıb ki, adıçəkilən rayonun Mehdi Abbasov küçəsi, 6A saylı binada yaşayan sakinlər evlərinin sökülə biləcəyindən nigaranlıqlarını dilə gətiriblər. Şikayətçilərin sözlərinə görə, məhəllələrinin qarşısındakı 2 ikimərtəbəli binanı söküb yerində göydələn ucaldan "Vesta Construction" adlı bir şirkət indi də onların evlərinə göz tikib. Dəfələrlə bina sakinlərinə könüllü olaraq yaşadıqları mənzili tərk etmələrini və şirkətlə razılaşmayacaqları təqdirdə Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi ilə məsələni çözüb sağlam binaya qəzalı raportu alacaqlarını bildiriblər. Bu təhdiddən qorxuya düşən sakinlərin üz tutmadığı, döymədiyi qapı, məktub yazmadığı ünvan qalmayıb. Nəhayət, sakinlər rayonun o vaxtkı icra başçısı Arif Qasımovla görüşüb və binalarının plana düşmədiyini, ümumiyyətlə pilot layihələrin ötən ildən dayandırıldığını bildirib. İcra başçısı onu da deyib ki, həmin tikinti şirkəti bir də onları narahat etsə, şəxsən özünə və rayon polis idarəsinə xəbər versinlər. Maraqlıdır ki, icra başçısının əvvəl onun birinci müavini Qərib Məmmədov da sakinlərin şikayətlərinə eyni məzmunda yazılı cavab verib.

Ancaq o zamanlar absurd vəziyyət yaranıb: A.Qasımovun şikayətçiləri haqlı görməsinə baxmayaraq, "Vesta Construction" şirkətinin bina sakinlərinə basqıları dayanmayıb. Sakinlərin bildirdiyinə görə, şirkətin nümayəndələri hər gün onların qapısını döyüb binanı tərk etmələrini məsləhət görüblər. Nəticədə sakinlər çaş-baş qalıblar. Bilməyiblər icra başçısına, yoxsa evlərinə göz dikən "Vesta Construction"-a inansınlar.

Həmin vaxt bu hadisələr fonunda A.Qasımovun əslində sözügedən tikinti şirkəti ilə gizli işbirliyi içində olduğuna dair iddialar ortaya çıxıb. Belə fikirlər dolaşmağa başlayıb ki, əslində, sabiq icra başçısı quru vədlər verməklə, camaatın başı altına yastıq qoyaraq onları sakitləşdirməklə məşğuldur. Belə düşünənlərin başqa bir arqumenti isə ondan ibarət idi ki, Qasımov rayon ərazisində çoxsaylı tikinti işlərinə necə gəldi razılıq verib, bu isə onun həmin şirkətlərdə qeyri-rəsmi şəkildə paya sahib olması ilə əlaqədardır.

İddialara görə, Nizami rayonunda tikilən yeni binaların az qala hamısında Qasımova hədiyyə edilən həmin pay - mənzil, yaxud, mənzillər mövcuddur.

Sabiq icra başçısı bu cür iddialara heç vaxt münasibət bildirməyib. Deyilənləri nə təsdiq, nə də təkzib edib.

Onu da deyək ki, A.Qasımov 2011-2015-ci illərdə Siyəzənə rəhbərlik etdikdən sonra Nizami rayonuna icra başçısı gətirilmişdi. Həmin postu 5 il tutan və 2020-ci ilin iyulunda vəzifəsindən kənarlaşdırılan Qasımov işdən azad edilməsinə belə reaksiya vermişdi: "Cənab Prezidentin verdiyi qərar bizim tacımız, qəbulumuzdur. Səhvim oldu, cənab Prezident də məni vəzifəmdən azad etdi".

Sabiq başçı səhvinin və ya səhvlərinin nə olduğunu açıqlamamışdı, lakin bəzi məlumatlarda onun Nizami rayonunu qanunsuz tikinti meydançasına çevirməsinin və tikinti şirkətləri ilə gizli, şübhəli əlaqələrinin olmasının da işsiz qalmasında ciddi rol oynadığı deyilirdi. Elə "Vesta Construction"la bağlı Arif Qasımovun icra başçısı olduğu vaxtlardan Nizami rayonunda baş qaldıran və günümüzədək davam edən narazılıqların, qalmaqalların kökündə də həmin gizli, şübhəli əlaqələrin dayandığına dair təxminlər mövcuddur.

***Sənan Mirzə***

**5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın rəqəmsal müdafiəsində yeni mərhələ

## Osman Gündüz:" Mərkəzləşdirilmiş və daha geniş səlahiyyətlərə malik qurum bu təhdidlərə daha çevik reaksiya verməyə imkan yarada bilər"

***Bugünlərdə Azərbaycanın rəqəmsal transformasiya yolunda növbəti mühüm addım atılıb. Prezident tərəfindən imzalanan yeni Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında fəaliyyət göstərən Elektron Təhlükəsizlik Xidmətinin bazasında Milli Kibertəhlükəsizlik Agentliyi publik hüquqi şəxs yaradılıb. Yeni qurum ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmə, nəzarət və koordinasiya funksiyalarını həyata keçirəcək.***

Müasir dövrdə dövlətlərin təhlükəsizliyi artıq yalnız sərhədlərin qorunması ilə ölçülmür. Rəqəmsal infrastrukturun etibarlılığı, dövlət informasiya sistemlərinin dayanıqlılığı, vətəndaş məlumatlarının qorunması və kritik xidmətlərin fasiləsiz fəaliyyəti milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Məhz bu baxımdan Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması ölkənin rəqəmsal təhlükəsizlik arxitekturasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Fərmana əsasən, Agentlik kibertəhlükələrin aşkarlanması və qarşısının alınması, informasiya infrastrukturlarının dayanıqlılığının artırılması, fərdi məlumatların mühafizəsi, internet mühitində qanunvericiliyin tələblərinin icrasına nəzarət, həmçinin dövlət və özəl sektorun kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi istiqamətlərində fəaliyyət göstərəcək. Bundan başqa, qurum ölkə üzrə kibertəhlükələr barədə operativ məlumatlandırma sisteminin formalaşdırılmasını və informasiya infrastrukturu subyektləri arasında koordinasiyanın gücləndirilməsini təmin edəcək.

Ekspertlərin fikrincə, Agentliyin yaradılması ilk növbədə vətəndaşların rəqəmsal təhlükəsizliyinin güclənməsinə xidmət edəcək.

İKT üzrə ekspert, Azərbaycan İnternet Formunun rəhbəri Osman Gündüz "Unikal" qəzetinə müsahibəsində Prezidentin imzaladığı yeni Fərmanla RİNN tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxsin yaradılmasını şərh edib.

Ekspert bildirib ki, son illərdə onlayn dələduzluq, fişinq hücumları, şəxsi məlumatların oğurlanması və saxta internet resurslarının sayı artıb. Mərkəzləşdirilmiş və daha geniş səlahiyyətlərə malik qurum bu təhdidlərə daha çevik reaksiya verməyə imkan yarada bilər. Onun fikrincə, vətəndaşların kibergigiyena sahəsində maarifləndirilməsi, təhlükəsiz internet istifadəsi ilə bağlı təlim və kampaniyaların genişləndirilməsi gözlənilir. Bu isə kibercinayətlərin qarşısının alınmasında mühüm rol oynaya bilər:" Yeni Agentliyin fəaliyyətindən ən çox faydalanacaq sahələrdən biri də dövlət və özəl sektor olacaq. Banklar, telekommunikasiya operatorları, enerji və nəqliyyat sistemləri kimi kritik infrastruktur obyektləri getdikcə daha çox kibertəhlükələrin hədəfinə çevrilir.

Agentliyin koordinasiyaedici rolu bu qurumlar arasında məlumat mübadiləsini sürətləndirə, insidentlərə cavab mexanizmlərini təkmilləşdirə və təhlükəsizlik standartlarının vahid şəkildə tətbiqini təmin edə bilər. Bu isə iqtisadiyyatın rə-



qəmsal dayanıqlığını artıracaq.

Fərmana və yeni qurumun Nizamnaməsinə göz gəzdirəndə görmək olur ki , bu dəyişiklik sadəcə ad dəyişikliyi deyil. Qurumun statusu yüksəldilir, idarəetmə modeli yenilənir və ona yeni səlahiyyətlər verilir.

Sənədlərdən görünür ki, yeni Agentlik əsasən kritikə aid olmayan özəl sektorun kibertəhlükəsizlik tənzimləyicisi rolunda çıxış edəcək.

Yəni telekom operatorları, internet provayderləri, banklar, maliyyə qurumları, e-ticarət platformaları, özəl şirkətlər, hostinq və bulud xidmətləri, müxtəlif informasiya infrastrukturu subyektləri ilə bağlı koordinasiya, monitorinq, metodoloji dəstək və tənzimləmə funksiyalarını həyata keçirəcək.

Ən diqqətçəkən yenilik isə fərdi məlumatların mühafizəsi sahəsindədir.

Agentliyə fərdi məlumat bazalarının reyestrinin aparılması, auditlərin təşkili, şikayətlərin araşdırılması və nəzarət səlahiyyətləri verilib. Bu baxımdan Agentliyi müəyyən mənada Azərbaycanın gələcək GDPR-AZ qurumu kimi də qiymətləndirmək olar".

O. Gündüz əlavə edib ki, Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması Azərbaycanın beynəlxalq kibertəhlükəsizlik əməkdaşlığında mövqeyini də gücləndirə bilər. "Dünyanın bir çox ölkələrində kibertəhlükəsizlik üzrə xüsusi agentliklər fəaliyyət göstərir və qlobal kibertəhdidlərə qarşı mübarizə əsasən belə qurumlar arasında əməkdaşlıq çərçivəsində aparılır. Yeni status və institusional imkanlar Azərbaycanın beynəlxalq tərəfdaşlarla məlumat mübadiləsini genişləndirməsinə, qabaqcıl təcrübələrin ölkəyə gətirilməsinə və regional kibertəhlükəsizlik təşəbbüslərində daha fəal iştirakına şərait yarada bilər.

Bununla yanaşı, Fərmandan görünür ki, dövlət sektorunun ən kritik hissəsi əvvəlki kimi DTX və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nəzarətində qalır.

Dövlət qurumlarının informasiya sistemləri, Kritik informasiya infrastrukturları, Enerji, nəqliyyat, rabitə, maliyyə kimi strateji sektorların kritik sistemləri, Xüsusi mühafizə olunan və strateji obyektlər, Kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin sistemləri, Dövlət sirri ilə işləyən informasiya sistemləri DTX Milli Kibertəhlükəsizlik Mərkəzi və XRİTDX nəzarətindədir.

Yeni Agentliyə isə bu sahələr üzrə əsasən məlumat mübadiləsi və məlumatlandırma funksiyaları verilib.

Ümumilikdə bu Fərman son illərdə ölkədə kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahəsində qəbul edilən mühüm institusional qərarlardan biri hesab oluna bilər.

Xüsusən də fərdi məlumatların mühafizəsi sahəsində ölkədə daha dayanıqlı mühitin yaranacağını düşünmək olar. Qarşıdakı dövrdə isə Agentliyin real təsiri onun bu səlahiyyətlərdən necə istifadə etməsindən asılı olacaq", deyə müsahibimiz əlavə edib.

Qeyd edək ki, Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması Azərbaycanda rəqəmsal təhlükəsizlik sisteminin institusional baxımdan gücləndirilməsi istiqamətində mühüm addım hesab oluna bilər. Bu dəyişiklik ölkənin informasiya infrastrukturunun qorunmasına, vətəndaşların şəxsi məlumatlarının təhlükəsizliyinə və rəqəmsal iqtisadiyyatın dayanıqlı inkişafına əlavə töhfə vermək potensialına malikdir. Qarşıdakı illərdə Agentliyin fəaliyyəti Azərbaycanın kibernməkanda təhlükəsiz və etibarlı dövlət kimi mövqeyinin möhkəmlənməsində mühüm rol oynaya bilər.

Məlumat üçün onu da əlavə edək ki, yeni Agentliyin fəaliyyəti süni intellekt texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrə təsadüf edir. Deepfake videolar, avtomatlaşdırılmış fişinq hücumları və AI əsaslı kibertəhdidlər dövlətlər qarşısında yeni çağırışlar yaradır. Agentliyin bu risklərə qarşı qabaqlayıcı mexanizmlər formalaşdırması vacib olacaq.

Onu da qeyd etmək yerinə düşər ki, son illərdə dünyada kibercinayətlərin vurduğu iqtisadi zərər trilyonlarla dollarla ölçülür. Dövlət qurumları, banklar, enerji sistemləri və xəstəxanalar kiberhücumların əsas hədəflərinə çevrilib. Bu isə kibertəhlükəsizliyin artıq texniki deyil, milli təhlükəsizlik məsələsi olduğunu göstərir!

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# ADY Çindən yeni qatarlar almağı planlaşdırır

***AZCON Holding şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov Çin Xalq Respublikasına səfəri çərçivəsində bu ölkənin "CRRC Zhuzhou Locomotive Co., Ltd." şirkətində olub, şirkətin rəhbəri Van Çiaolin ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanda dəmir yolu ilə sərnişindaşımanın inkişafı və müasir hərəkət tərkibi parkının genişləndirilməsi müzakirə olunub.

Qeyd edilib ki, dünyada hərəkət tərkiblərinin istehsalı üzrə aparıcı şirkətlərdən biri olan "CRRC Zhuzhou" ADY ilə əməkdaşlığın inkişafında maraqlıdır.

ADY sədri Rövşən Rüstəmov bildirib ki, Azərbaycanda dəmir yolu nəqliyyatının modernləşdirilməsi sərnişinlərə daha rahat, təhlükəsiz, etibarlı və dayanıqlı xidmət göstərilməsi baxımından prioritet istiqamətlərdəndir:

"ADY-nin hədəflərindən biri artan sərnişin tələbatına çevik cavab verən müasir hərəkət tərkibi parkı formalaşdırmaqdır. Yeni sərnişin qatarlarının alınması üzrə danışıqlar həm şəhərətrafı, həm də rayonlararası marşrutlarda xidmət keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır".

Görüşdə Azərbaycanın dəmir yollarında rayonlararası istiqamətlər üzrə istifadə olunacaq 4 ədəd yeni sərnişin qatarının ilə alınması bağlı danışıqlar aparılıb, "CRRC Zhuzhou" tərəfindən təqdim olunan qatarlara baxış keçirilib. Tərəflər hərəkət tərkiblərinin texniki parametrləri, enerji səmərəliliyi, süni intellektlə çalışan müasir təhlükəsizlik sistemləri, istismar dayanıqlılığı, ehtiyat hissələri ilə təminat, texniki xidmət və təlim imkanları üzrə fikir mübadiləsi aparıblar.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində 20 ədəd sərnişin qatarının alınması məsələsi də müzakirə olunub. Çin tərəfinin bu istiqamətdə təklifləri dinlənilib, layihənin texniki, kommersiya və icra mexanizmləri barədə fikir mübadiləsi aparılıb.

ADY nümayəndə heyəti həmçinin "CRRC Nanjing Puzhen Co." şirkətində olub, bu şirkətin rəhbəri Yan Qi ilə görüşüb.

Bildirilib ki, "CRRC Nanjing Puzhen Co., Ltd." sərnişin vaqonları, elektrik qatarları və digər hərəkət tərkiblərinin istehsalı sahəsində geniş təcrübəyə malikdir. Şirkətin bu sahədə texnoloji imkanları ADY-nin sərnişindaşıma parkının modernləşdirilməsi üzrə gələcək layihələri üçün əməkdaşlıq perspektivlərini aktuallaşdırır.

Görüş zamanı 4 ədəd yeni sərnişin qatarının və 50 ədəd sərnişin vaqonunun alınması ilə bağlı texniki və kommersiya məsələləri geniş müzakirə olunub. Tərəflər qatar və vaqonların texniki xüsusiyyətləri, təhlükəsizlik sistemləri, sərnişin komfortu və texniki xidmət imkanları, ehtiyat hissələri ilə təminat, həmçinin personalın təlimi və texnologiya transferi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# "Belə hadisələr bank sisteminə olan etimada zərbə vurur" - İqtisadçı



***"Bank sektorunda ən vacib məsələ etibardır. Belə hadisələr təkcə bir banka yox, bütövlükdə bank sisteminə olan etimada zərbə vurur".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, illərlə qazanılan etibarı itirmək bir anlıq məsələdir, amma onu yenidən bərpa etmək illər çəkə bilər:

"Ona görə də banklar təhlükəsizlik sistemlərinə, proqram təminatının yenilənməsinə, güclü texniki infrastruktura və peşəkar mütəxəssislərə daha çox vəsait ayırmalıdırlar. Bu, xərc deyil, müştərinin etimadına qoyulan investisiyadır", - deyə iqtisadçı bildirib.

# Samuxda dövlət qulluqçularının sayı 123 nəfərdir

***2026-cı il yanvarın 1-i tarixinə Samux rayonunda dövlət qulluqçularının sayı 123 nəfər olmuşdur ki, onların da 25 nəfərini qadınlar təşkil edir. Dövlət qulluğu vəzifələrini tutmuş işçilərin 110 nəfəri dövlət qulluğu təşkilatlarının inzibati vəzifələrində, 13 nəfəri isə yardımçı vəzifələri üzrə çalışan işçilər olmuşdur.***




Dövlət qulluqçularının 2 nəfəri 1 ilədək, 18 nəfəri 1 ildən 5 ilədək, 38 nəfəri 5 ildən 10 ilədək, 32 nəfəri 10 ildən 15 ilədək, 33 nəfəri isə 15 il və daha çox qulluq stajına malikdir.

2025-ci ildə dövlət qulluqçularının orta aylıq nominal əmək haqqı 1364,5 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 2,6 faiz çox olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# Azərbaycan nefti sürətlə ucuzlaşır

***"Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 3,38 ABŞ dollar azalıb.***

Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 3,38 ABŞ dolları və ya 4,23 % azalaraq 76,38 ABŞ dolları təşkil edib.

Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 65 ABŞ dollarından hesablanıb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# "Müasir ordu quruculuğu şanlı Zəfəri təmin edən mühüm faktordur"

***Hər il 26 iyun tarixində qeyd olunan Silahlı Qüvvələr Günü xalqımızın dövlətçilik tarixində xüsusi yer tutan əlamətdar günlərdən biridir. Bu tarix milli təhlükəsizliyin, dövlət müstəqilliyinin, xalq-ordu birliyinin və Vətənə sədaqətin təcəssümüdür. Müasir Azərbaycan Ordusunun formalaşması və dünyanın ən güclü orduları sırasında yer alması uzun illər ərzində həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir.***

Milli ordu quruculuğunun təməlində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Hələ 1969-cu ildə respublikaya rəhbərliyə başladığı dövrdən etibarən Ulu Öndər milli hərbi kadrların hazırlanmasını strateji məsələ kimi müəyyənləşdirmişdi. O dövrdə ittifaq məkanında milli zabit kadrlarının hazırlanması olduqca mürəkkəb məsələ hesab olunurdu. Lakin Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində bu istiqamətdə mühüm addımlar atıldı.

1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması milli hərbi təhsil tarixində dönüş nöqtəsi oldu. Bu təhsil ocağı sonrakı onilliklər ərzində minlərlə peşəkar zabit yetişdirərək Silahlı Qüvvələrimizin kadr bazasının formalaşmasında müstəsna rol oynadı. Eyni zamanda, yüzlərlə gəncin keçmiş SSRİ-nin nüfuzlu hərbi akademiyalarına göndərilməsi gələcəkdə müstəqil dövlətimizin ordu quruculuğu prosesinə ciddi töhfə verdi.




1990-cı illərin əvvəllərində dövlətçiliyimiz ağır sınaqlarla üzləşmişdi. Torpaqlarımızın işğala məruz qalması, siyasi böhran və nizami ordunun olmaması vəziyyəti daha da mürəkkəbləşdirirdi. Ayrı-ayrı silahlı dəstələrin mövcudluğu vahid komandanlıq prinsipini iflic vəziyyətə salmışdı. Belə bir mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dövlətçiliyin xilası ilə yanaşı, nizami ordu quruculuğunu da prioritet istiqamət kimi müəyyənləşdirdi.

1994-cü ilin mayın 12-də əldə olunan atəşkəsdən sonra Silahlı Qüvvələrin formalaşdırılması prosesi yeni mərhələyə qədəm qoydu. Maddi-texniki bazanın möhkəmləndirilməsi, hərbi hissələrin yaradılması, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi və peşəkar kadr potensialının gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirildi. Məhz həmin illərdə formalaşdırılan ordu quruculuğu konsepsiyası sonrakı uğurların əsasını təşkil etdi.

1998-ci il mayın 22-də imzalanan Fərmanla 26 iyun tarixinin Silahlı Qüvvələr Günü elan olunması milli ordu quruculuğuna verilən yüksək dəyərin ifadəsi idi. Sonrakı illərdə hərbi təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. Hərbi Akademiyanın yaradılması, ali hərbi məktəblərin fəaliyyətinin genişləndirilməsi, zabit hazırlığı sisteminin təkmilləşdirilməsi peşəkar ordu modelinin formalaşmasına xidmət etdi.

Ordu quruculuğunun mühüm istiqamətlərindən biri də beynəlxalq əməkdaşlıq oldu. NATO ilə əməkdaşlıq proqramları çərçivəsində minlərlə hərbçi müasir hərbi biliklərə yiyələndi, beynəlxalq sülhməramlı missiyalarda iştirak etdi. Kosovoda, Əfqanıstanda və İraqda qazanılan təcrübə Silahlı Qüvvələrimizin peşəkarlıq səviyyəsinin yüksəlməsinə mühüm töhfə verdi.

2003-cü ildən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəldi. Müdafiə sahəsinə ayrılan vəsait ildən-ilə artırıldı, hərbi hissələr yenidən quruldu, ən müasir silah və texnikalar alındı. Eyni zamanda yerli hərbi sənaye kompleksinin yaradılması müdafiə potensialının gücləndirilməsində mühüm rol oynadı.

Bu gün Azərbaycanda minlərlə adda hərbi təyinatlı məhsul istehsal olunur. Müasir pilotsuz uçuş aparatları, zirehli texnikalar, atıcı silahlar və digər hərbi vasitələrin istehsalı Silahlı Qüvvələrin təminat imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Müdafiə sənayesinin inkişafı ordunun xarici mənbələrdən asılılığının azalmasına da mühüm töhfə verir.

2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt əməliyyatı Silahlı Qüvvələrin artan gücünü nümayiş etdirdi. Bu uğurlar təsdiqləyir ki, həyata keçirilən ordu quruculuğu siyasəti real nəticələr verir və ordumuz qarşısına qoyulan bütün vəzifələri yerinə yetirməyə qadirdir. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi isə müasir tariximizin ən parlaq səhifəsinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün ərzində misilsiz qəhrəmanlıq göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Döyüş meydanında əldə olunan Qələbə beynəlxalq hüququn və tarixi ədalətin təmin olunması ilə nəticələndi.

Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun nümayiş etdirdiyi qəhrəmanlıq, vətənpərvərlik və fədakarlıq bütün dünyada böyük rəğbətlə qarşılandı. Yaralı hərbçilərin yenidən döyüş meydanına qayıtmaq istəyi, orduda bir nəfər belə fərarinin olmaması xalq-ordu birliyinin ən parlaq nümunələrindən biri kimi tarixə düşdü. 2023-cü ilin sentyabr ayında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyi tam təmin edildi. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat Silahlı Qüvvələrimizin peşəkarlığını, yüksək hazırlığını və texnoloji üstünlüyünü bir daha nümayiş etdirdi. Prezident, Ali Baş Komandan qeyd edib: "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".

Müharibədən sonra ordu quruculuğu prosesi yeni məzmunla davam etdirilir. Komando hərbi hissələrinin yaradılması, xüsusi təyinatlı qüvvələrin sayının artırılması, hərbi təhsil sisteminin yenidən təşkili və Milli Müdafiə Universitetinin fəaliyyətə başlaması bu istiqamətdə həyata keçirilən mühüm addımlardandır.

Türkiyə ilə strateji müttəfiqlik münasibətləri Silahlı Qüvvələrin inkişafında xüsusi rol oynayır. Şuşa Bəyannaməsi hərbi əməkdaşlığın yeni mərhələsini formalaşdırıb. Birgə təlimlər, hərbi təhsil, müdafiə sənayesi və texnologiya mübadiləsi sahəsində əməkdaşlıq ordumuzun daha da güclənməsinə xidmət edir. Pakistan, İsrail və digər tərəfdaş dövlətlərlə hərbi-texniki əməkdaşlığın genişləndirilməsi də müdafiə potensialının artırılmasına mühüm töhfə verir. Müasir döyüş təyyarələrinin alınması, pilotsuz sistemlərin tətbiqi və yeni texnologiyaların mənimsənilməsi ordumuzun imkanlarını daha da genişləndirib.

Bu gün dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsidir. Minlərlə hərbçinin mənzillə təmin olunması, maaşların artırılması, güzəştli ipoteka imkanlarının yaradılması və hərbi təhsil alan gənclər üçün yeni stimullaşdırıcı mexanizmlərin tətbiqi bunun bariz nümunəsidir. Müasir dövrdə güclü dövlət anlayışı ilk növbədə güclü ordu ilə ölçülür. Azərbaycanın keçdiyi inkişaf yolu təsdiqləyir ki, milli maraqların qorunması, təhlükəsizliyin təmin olunması və əldə edilmiş tarixi nailiyyətlərin qorunub saxlanılması qüdrətli Silahlı Qüvvələrə əsaslanır.

Bu gün hər bir vətəndaş qürur hissi ilə deyə bilər ki, Ulu Öndərin əsasını qoyduğu və müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrdə Prezident İlham Əliyev tərəfindən daha da gücləndirilən ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu regionun ən qüdrətli silahlı qüvvələrindən birinə çevrilmiş, dövlətimizin təhlükəsizliyinin və suverenliyinin etibarlı təminatçısı olmuşdur.

***Asif Əsgərov,***
***Milli Məclisin deputatı***

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 14



# Bu toxumların istehsalına özəl sektor cəlb ediləcək



***Yüksək nəsilli orijinal və elit toxumların istehsalına özəl sektor cəlb ediləcək.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Toxumçuluq haqqında" yeni qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, orijinal və elit toxumların istehsalı seleksiyaçının nəzarəti altında elmi tədqiqat və təhsil müəssisələrinin təcrübə təsərrüfatlarında, habelə toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə cavab verən ixtisaslaşmış təsərrüfatlarda, sertifikatlı toxumların istehsalı isə bu fəaliyyət növü ilə məşğul olan toxumçuluq təsərrüfatlarında həyata keçiriləcək. Seleksiyaçılar normativ hüquqi aktlara uyğun olaraq fərdi qaydada və ya digər seleksiyaçılarla birlikdə orijinal və elit toxumların istehsalı ilə məşğul ola bilərlər.

Calaqaltı və calaqüstü anaclıqların yaradılması üçün xəstəliklərə və ziyanvericilərə davamlı bitki materialları toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq müvafiq elmi tədqiqat müəssisələrində və ya ixtisaslaşmış tingçilik təsərrüfatında istehsal olunacaq.

Artırılma mərhələsindən asılı olaraq kənd təsərrüfatı bitki sortlarının toxumlarının (tinglər istisna olmaqla) aşağıdakı kateqoriyaları müəyyən edilir:

- orijinal toxum;
- elit toxum;
- sertifikatlı toxum.

Artırılma mərhələsindən asılı olaraq tinglərin aşağıdakı kateqoriyaları müəyyən edilir:

- orijinal ting;
- əsas (baza) ting;
- sertifikatlı ting;
- standart ting.

Qeyd edilib ki, layihə toxumçuluq sahəsinin iqtisadi əsaslarını yeniləyir. Belə ki, qüvvədə olan qanuna əsasən yüksək nəsilli toxumlar kvota əsasında istehsal edilir ki, bu da bazar iqtisadiyyatı şəraitində rəqabəti əngəlləyirdi. Yüksək nəsilli orijinal və elit toxumların istehsalına özəl sektorun cəlb edilməsi bu sahədə rəqabət mühiti yaratmaqla, özəl seleksiyanın və özəl ilkin toxumçuluğun inkişafına şərait yaradacaq.

# Azərbaycanda yeni rüsum müəyyənləşir - 70 manat

***Azərbaycanda akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə 70 manat dövlət rüsumu alınacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət rüsumu haqqında" yeni qanun layihəsində əksini tapıb.

Qüvvədə olan qanuna əsasən, akvakultura subyektləri tərəfindən hazırlanan bioloji və texnoloji əsaslandırmanın qeydiyyatına görə 50 manat dövlət rüsumu alınır.



Qeyd edilib ki, "Balıqçılıq haqqında" qanun layihəsində balıqçılıq su obyektlərində akvakultura fəaliyyətinin "akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi" əsasında həyata keçirilməsi və qeydiyyat şəhadətnaməsinə görə dövlət rüsumunun tutulması nəzərdə tutulub. Qanunun bu tələbindən irəli gələrək "Dövlət rüsumu haqqında" qanunun 18.69-cu maddəsi yeni redaksiyada verilir.

Qeydiyyat şəhadətnaməsinin verilməsi zamanı yaradılan təsərrüfatın tələblərə uyğunluğunun qiymətləndirilməsi, ekspertiza və inzibati icraat tədbirləri həyata keçirilir. Bu baxımdan dövlət rüsumunun müəyyən edilməsi həmin inzibati xərclərin qismən kompensasiyasını təmin etməklə yanaşı, hüquqi sistemdə bərabərlik və vahid yanaşma prinsipini də təmin edir və fəaliyyətin leqallaşdırılmasını stimullaşdırır.

# Qusar rayonunda çalışan dövlət qulluqçuları haqqında statistika

***Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan və 2000-ci ilin iyulun 21-də qəbul olunan "Dövlət qulluğu haqqında" Qanunla dövlət orqanlarında çalışanlar dövlət qulluqçusu adlandırıldılar. Bu gün bu ad onu daşıyanlara nə qədər şərəf gətirirsə, bir o qədər də üzərlərinə məsuliyyət qoyur.***

Qusar rayonunda 2026-cı ilin əvvəlinə dövlət qulluqçularının ümumi sayı 140 nəfər olmuşdur ki, onlardan 20,7%-i (29 nəfər) qadınlardır. 2025-ci ilin eyni dövrü ilə müqayisədə dövlət qulluqçularının ümumi sayında dəyişiklik olmamışdır. 2026-cı ilin əvvəlinə 140 nəfərdən -126-sı inzibati, 14-ü isə yardımçı vəzifələri tutmuşlar.

Dövlət qulluqçularının yaşa görə bölgüsünə nəzər saldıqda görərik ki, burda əksəriyyət orta nəslə aiddir. Belə ki 35-54 yaşda olan dövlət qulluqçularının sayı- 68 nəfər (48,6%), 35 yaşa qədər - 24 nəfər(17,1%) və 55 yaşdan yuxarı - 48 nəfərdir (34,3%).

Dövlət qulluqçularının iş stajına görə bölgüsünə baxdıqda isə, burada əksəriyyət 15 il və daha çox iş stajı olan dövlət qulluqçularına aiddir. Belə ki, onların sayı 47 nəfər təşkil edir, yəni 33,6%. 1 ilədək stajı olanların sayı - 4 nəfər (2,9%), 1 ildən 5 ilə qədər - 22 nəfər (15,7%), 5 ildən 10 ilə qədər isə - 31 nəfər (22,1%), 10 ildən 15 ilə qədər isə dövlət qulluqçularının sayı 36 (25,7%) nəfər təşkil edir.

Dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı 2025-ci ildə 2024-cü ilə nisbətən 8,4% artaraq 1384,8 manat olmuşdur.

***Qusar Rayon Statistika İdarəsi***

# Nağdsız ödənişlərin həcmi 8,7 mlrd. manat olub



***2026-ci ilin may ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 8 milyard 680 milyon manat təşkil edib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, ilin əvvəlindən ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 14% artıb.

Ötən ay həyata keçirilən nağdsız ödənişlərin 7 milyard 620 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 1 milyard 58 milyon manatı POS-terminallar, 2 milyon manatı isə özünə xidmət terminalları və bankomatlar vasitəsilə gerçəkləşdirilib.

Bundan əlavə, banklar və "Azərpoçt" MMC ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, ötən ilin may ayının sonu ilə müqayisədə bankomatların sayı 5.1%, POS-terminalların sayı 19.3% artıb.

# Kəlbəcərdə dövlət qulluqçularının sayı və onların əməkhaqqı barədə rəqəmlər



***"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan ötən dövr ərzində dövlət qulluğu sahəsində geniş qanunvericilik bazası yaradılmış, həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanda müasir dövlət qulluğu sistemi formalaşmış, dövlət qulluqçularının peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə zəruri addımlar atılmışdır.***

2026-cı il yanvarın 1-nə Kəlbəcər rayonunda dövlət qulluqçularının sayı 179 nəfər olmuşdur ki, onların da 11,7 faizini qadınlar təşkil edir.

Rayon üzrə dövlət qulluqçularının 1,7 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali-3-cü təsnifatları, 1,1 faizi 4-cü təsnifatı, 1,1 faizi 5-ci təsnifatı, 4,5 faizi 6-cı təsnifatı, 84,9 faizi 7-ci təsnifatı, 6,7 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir.

Rayon üzrə dövlət qulluqçularının 0,6 faizi 1 ilədək, 15,6 faizi 1 ildən 5 ilədək, 19,0 faizi 5 ildən 10 ilədək, 34,6 faizi 10 ildən 15 ilədək, 30,2 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Rayon üzrə dövlət qulluqçularının 0,5 faizini 25 yaşadək, 7,3 faizini 25-29 yaşda, 14,5 faizini 30-34 yaşda, 16,2 faizini 35-39 yaşda, 21,2 faizini 40-44 yaşda, 15,1 faizini 45-49 yaşda, 10,6 faizini 50-54 yaşda, 5,6 faizini 55-59 yaşda, 7,3 faizini 60-64 yaşda, 1,7 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir. 2025-ci ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 9,4 faiz artaraq 1414,0 manat təşkil etmişdir.

***Kəlbəcər Rayon Statistika İdarəsi***

# Pensiyalarla bağlı ən son rəqəmlər açıqlandı

***Azərbaycanda pensiyaçıların sayı 2026-cı ilin əvvəlinə 1 milyon 98,9 min nəfərə çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin "Azərbaycan rəqəmlərdə 2026" məcmuəsində yer alıb. Məlumata görə, ölkədə pensiyaçıların 711,8 min nəfəri yaşa görə, 251,2 min nəfəri əlilliyə görə, 135,9 min nəfəri isə ailə başçısını itirməyə görə pensiya alır.

Statistikaya əsasən, 2026-cı ilin əvvəlinə təyin olunmuş aylıq pensiyaların orta məbləği 541,6 manata yüksəlib. Bu göstərici yaşa görə pensiya alanlarda 577,4 manat, əlilliyə görə pensiya alanlarda 437,3 manat, ailə başçısını itirməyə görə pensiya alanlarda isə 547,2 manat təşkil edib.

Rəqəmlər göstərir ki, pensiyaçıların əsas hissəsini yaşa görə pensiya alanlar təşkil edir. Onların ümumi pensiyaçıların sayında payı 64,8 faizdir. Əlilliyə görə pensiya alanların payı 22,8 faiz, ailə başçısını itirməyə görə pensiya alanların payı isə 12,4 faiz olub.

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 15



## Rumıniya səfiri Rusiya XİN-ə çağırıldı

***Rumıniya səfiri Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya XİN rəsmisi Mariya Zaxarova bildirib.

Onun sözlərinə görə, səfir Konstansadakı Rusiya Baş Konsulluğunun bağlanması ilə əlaqədar olaraq XİN-ə dəvət olunub.

Xatırladaq ki, mayın 29-da Rumıniya Prezidenti Nikusor Dan Konstansadakı Rusiya Baş Konsulluğunu bağlamaq qərarına gəlib. Bu qərara Rumıniyanın Qalatsi şəhərində pilotsuz uçuş aparatının (PUA) çoxmənzilli binanın damına düşməsi ilə bağlı hadisə səbəb olub. Hadisədə iki nəfər yaralanıb və Buxarest insidentdə Moskvanı günahlandırıb.

*Gülayə Mecid*

## "Bu halda AİB-in dağılması qaçılmaz olacaq" - Paşinyan

***Digər AİB tərəfdaşları Ermənistanın təcrübəsindən narahatdır.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumət iclasında deyib.

"Onların da narahat olduğuna 100 faiz əmin olun, çünki hamı eyni şeyin onların da başına gələ biləcəyini başa düşür. Əgər biz bunu indi tez bir zamanda həll etməsək, bu, AİB-in dağılmasını qaçılmaz edəcək. Biz özümüzə AİB-dən çıxmaq vəzifəsi qoymamışıq", - deyə o qeyd edib.

Paşinyan vurğulayıb ki, əgər bu məsələlər həll olunmazsa, ittifaqın dağılması qaçılmaz olacaq: "Cənubi Qafqaz ölkələrinin regionu bir çox ortaq maraqların və bir çox nüansların olduğu ortaq bir region kimi düşünməsinin vaxtıdır".

*Ağarza Elçinoğlu*

## Venesuelada 7,5 bal gücündə zəlzələ onlarla insanın həyatına son qoydu

***Venesuelada baş verən zəlzələ nəticəsində 32 nəfər ölüb, 700 nəfər yaralanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Venesuela prezidenti vəzifəsini icra edən Delsi Rodrigez yerli mətbuata açıqlamasında deyib.

Rodrigez bildirib ki, "Hazırda La Quayra ştatının təqdim edə biləcəyi rəqəmləri çıxmaq şərtilə 32 ölüm hadisəsi və dövlət xəstəxanalarının və özəl tibb mərkəzlərinin təcili yardım şöbələrinə yerləşdirilən 700-dən çox yaralı barədə məlumatımız var".

Onun sözlərinə görə, xilasetmə işləri davam edir və Milli Qvardiya dağıntılar altında qalan insanları axtarır.

*Gülayə Mecid*

## Bu, Şimali Koreyada gərginliyin artmasına səbəb olur

***Moskva Cənubi Koreya və ABŞ-nin KXDR sərhədləri yaxınlığında davam edən hərbi fəaliyyətindən narahatdır, çünki bu, Koreya yarımadasında gərginliyin artmasına səbəb olur.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyi bəyanat yayıb. Nazirlik müvafiq mövqenin Cənubi Koreya tərəfinə çatdırıldığını qeyd edib."Cənubi Koreya tərəfi həmçinin Koreya Xalq Demokratik Respublikasının sərhədləri yaxınlığında Koreya Respublikası ilə ABŞ arasında davam edən qarşıdurma hərbi fəaliyyəti ilə bağlı narahatlıqlar barədə məlumatlandırılıb", - deyə açıqlamada bildirilir.

Xarici İşlər Nazirliyinin məlumatına görə, bu cür hərəkətlər həm Koreya yarımadasında, həm də bütövlükdə regionda gərginliyin daha da artmasına səbəb olur.

## Paşinyan yeni hökumətdə dəyişiklik etməyəcəyini açıqladı

***Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətdə heç bir dəyişiklik etməyi planlaşdırmır.***

"Unikal" xəbər verir ki, o, bunu icra orqanının iclasından sonra jurnalistlərin suallarını cavablandırarkən bildirib.

"Yeni, hökumət üzvləri - baş nazirin müavinləri və nazirlər yenidən təyin olunacaq. Bəzi dəyişikliklər digər səviyyələrdə də baş verəcək", - deyə o qeyd edib.



Paşinyan xatırladıb ki, dünyanın ən yaxşı 200 universitetinin məzunlarını hökumətin kadr bankına daxil etməyə dəvət edir. Onun sözlərinə görə, Ermənistanda dövlət aparatında işləmək getdikcə daha cəlbedici olacaq.

*Ağarza Elçinoğlu*

## Böyük Britaniya Ukraynaya 380 milyon dollar ayıracaq

***Böyük Britaniya hökuməti Ukraynanın yenidənqurma layihələri üçün əlavə 290 milyon funt sterlinq (təxminən 380 milyon dollar) ayıracaq.***

"Unikal" xəbər verir ki, bu barədə Böyük Britaniyanın xarici işlər naziri İvet Kuper məlumat verib.

Onun sözlərinə görə, yeni paketə Ukraynanın Energoatom şirkətinə nüvə yanacağı tədarükü üçün Urenco ilə 210 milyon funt sterlinq dəyərində müqavilə daxildir.

Kuper qeyd edib ki, "Bundan əlavə, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində Ukraynanın bərpa olunan enerji və bank sektorlarındakı layihələrə 65 milyon funt sterlinqə qədər vəsait ayrılacaq".

Britaniya Xarici İşlər Nazirliyi vəsaitin iki külək elektrik stansiyasının tikintisinə, Lvov Bankı vasitəsilə biznesin dəstəklənməsi və Lvov Hava Limanının modernləşdirilməsinə sərf olunacağını dəqiqləşdirib.

*Gülayə Mecid*




## Tehrandan Tramp administrasiyasına xəbərdarlıq

***"Tehran Vaşinqtona öhdəliyə öhdəlik prinsipini xatırladıb".***

"Unikal" xəbər verir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqayi bildirib.

"İranlılar bilirlər ki, düşmənin pis niyyəti müqavilənin imzalanması ilə bitmir. Hər addım sayıqlıqla və son beş onilliyin təcrübəsini, xüsusən də son bir il yarımın hadisələrini nəzərə alaraq atılacaq. Amerika rəsmilərinin tətbiq edilən müharibənin dayandırılması ilə bağlı anlaşma memorandumu ilə bağlı ziddiyyətli açıqlamaları iranlılara qarşı dərin inamsızlığı aradan qaldırmağa kömək etməyəcək, əksinə onlara yalnız keçmişin pozulmuş vədlərini xatırladacaq.



Hakim Amerika administrasiyası yadda saxlamalıdır ki, "öhdəliyə öhdəlik" prinsipi qarşılıqlı öhdəliklərin yerinə yetirilməsini və anlaşma memorandumunun aydın mətninə tamamilə zidd olan şərhlərin rədd edilməsini tələb edir", - deyə o açıqlayıb.

*Ağarza Elçinoğlu*

## "ABŞ Tayvanla rəsmi əlaqələr saxlamamalıdır" - Çin

***ABŞ heç bir halda Tayvanla rəsmi əlaqələri, o cümlədən federal və yerli hökumət səviyyələrində qarşılıqlı əlaqələri saxlamamalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Çin Xarici İşlər Nazirliyinin sözçüsü Quo Ciakun brifinqdə bildirib.

Diplomat bildirib ki, "Çin ABŞ-nin Çinin Tayvan bölgəsi ilə hər hansı rəsmi əlaqəsinə ardıcıl və qətiyyətlə qarşı çıxır".

O, Vaşinqtonu "vahid Çin" prinsipinə və üç Çin-ABŞ birgə kommünikesinə riayət etməyə, eləcə də ABŞ prezidenti Donald Trampın vədlərini yerinə yetirməyə çağırıb. Xarici İşlər Nazirliyinin sözçüsünün sözlərinə görə, ABŞ Tayvanın müstəqilliyini müdafiə edən qüvvələrə "səhv siqnallar göndərməməlidir".

ABŞ, Böyük Britaniya, Fransa və bir sıra digər tərəflərin Tayvanın şərqində Çin sahil mühafizəsi patrulları ilə bağlı açıqlamalarına münasibət bildirən Quo Ciakun bildirib ki, Çinin bu sularda eksklüziv iqtisadi zonası və kontinental şelfi var. Qərb ölkələri əvvəllər Çinin adanın şərq sahillərindəki hərəkətlərinin regional sabitliyə və naviqasiya azadlığına təhlükə yaratdığını bildirmişdilər.

*Gülayə Mecid*



## Kərkük deputat Bakıda İlham Əliyevdən bunu xahiş etdi

***"Bu gün milli varlığımızı, kimliyimizi qorumaq üçün toplaşmışıq".***

"Unikal"ın məlumatına görə, bunu İraq parlamentinin Kərkükli deputatı Ərşad Salihi Bakıda keçirilən II "Türkmən İrsi: Vətəndaş Cəmiyyətlərinin Həmrəyliyi" Forumunda deyib.

O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edib: "Bu gün Qarabağımızın azad olunması, can Azərbaycanımızın dağ kimi ayaqda dayanması dünya türklərinin istədiyi bir həqiqətdir ki, o da oldu.

Cənab prezident İlham Əliyev zamanında bir tvit paylaşmışdı. Dedi ki, müstəqil olan Türk Dövlətləri Təşkilatları bir araya gəlib. Amma təşkilatdan kənarda yaşayan türklərimiz var. Biz onları niyə unutmuşuq?

Mən buradan müraciətimlə cənab prezidentdən bir xahiş edəcəyəm: Türk Dövlətləri Təşkilatının masası qurulub. O masada ölkələrin liderləri oturublar. Mən də xahiş edirəm ki, təşkilatdan kənarda qalan türklər üçün orada küncdə bir yerdə müşahidəçi qismində yer verin".

*Ağarza Elçinoğlu*

25_27 IYUl-QARA.qxd 6/25/2026 10:54 PM Page 16



# Nazir məktəblilərin basketbol yarışlarını izlədi




***İyunun 24-də Məktəblilərin Respublika İdman Olimpiadası çərçivəsində basketbol idman növü üzrə final və üçüncü yer uğrunda oyunlar keçirilib.***

"Unikal" xəbər verir ki, Bakı İdman Sarayında təşkil olunan yarışları Azərbaycan Basketbol Federasiyasının prezidenti, elm və təhsil naziri Emin Əmrullayev də izləyib.

Oğlanlar arasında keçirilən final qarşılaşmasında RİOEUGİM-2 komandası Gəncə UGİŞM komandasını 36:11 hesabı ilə məğlub edərək turnirin qalibi olub. Qızların final oyununda isə İOEUGİM-8 komandası Gəncə UGİŞM-1 komandasına 42:14 hesabı ilə qalib gələrək birinci yerə layiq görülüb.

Oğlanların üçüncü yer uğrunda oyununda İOEUGİM-8 komandası UGİM-10 komandasını 49:13 hesabı ilə məğlub edib. Qızlar arasında keçirilən üçüncü yer uğrunda qarşılaşmada isə Cəlilabad UGİM komandası Tovuz UGİŞM komandasına 23:9 hesabı ilə qalib gəlib.

Yarışların sonunda qalib və mükafatçılara medal, diplom və kuboklar təqdim olunub.

Mükafatlar elm və təhsil naziri Emin Əmrullayev, nazir müavini Firudin Qurbanov, Azərbaycan Basketbol Federasiyasının icraçı vitse-prezidenti Fərrux Mahmudov, Elm və Təhsil Nazirliyinin Uşaq və gənclərin inkişafı şöbəsinin müdiri Elnur Əliyev tərəfindən təqdim edilib.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən Məktəblilərin Respublika İdman Olimpiadası ölkəmizdə ilk dəfə təşkil olunur. Olimpiadanın əsas məqsədi məktəblilər arasında idmana marağın artırılması, sağlam həyat tərzinin təşviqi və gənc idmançıların inkişafına dəstək göstərilməsidir. Yarışlar iyunun 26-dək davam edəcək.

# "Araz-Naxçıvan" Rövlan Muradovu heyətinə qatdı

***"Araz-Naxçıvan" klubu növbəti futbolçu transferini reallaşdırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan təmsilçisi məlumat yayıb. Rövlan Muradov yeni mövsümdə komandanın formasını geyinəcək. Yarımmüdafiəçi ilə klub arasında anlaşmanın müddəti 1 ildir.




"Qəbələ" klubunun yetirməsi olan futbolçu müxtəlif illərdə Çexiya "Slaviya"sının B, "Qarabağ"ın U-19, "Qəbələ", "Sumqayıt" və "Zirə" komandalarının formasını geyinib. Futbolçu Azərbaycanın U-19 və U-21 millilərinin də heyətində çıxış edib.

Qeyd edək ki, "Araz-Naxçıvan" buna qədər Tərlan Əhmədli, Ömər Buludov, Slavik Alxasov, İbrahim Piriyev, Ülvi İsgəndərov, Rəşad Həsənov, Alberto Qarsia Fernandes, Alexandro Herrera və Luka Dumançiçlə yeni müqavilə imzalayıb.

# FIFA 15 yaşadək futbolçular arasında ilk dünya çempionatının Azərbaycanda keçirilməsinə qərar verib

***FIFA Şurasının Bürosunun qərarına əsasən, 15 yaşadək oğlan futbolçulardan ibarət komandalar arasında ilk dünya çempionatı və 2026-cı il Festivalı Azərbaycanda keçiriləcək.***

Qərara əsasən, turnir 22-31 oktyabr 2026-cı il tarixlərində təşkil olunacaq. Yarışda ali futbol qurumuna üzv olan milli assosiasiyaların U-15 komandaları iştirak edə biləcəklər.



FIFA bu qərarı qəbul edərkən Azərbaycanın müasir idman infrastrukturu, beynəlxalq standartlara cavab verən idman obyektləri və irimiqyaslı beynəlxalq yarışların təşkilində qazandığı uğurlu təcrübəni nəzərə alıb. Turnirin ölkəmizdə keçirilməsi Azərbaycanın dünya futbolunda artan nüfuzunun və beynəlxalq idman tədbirlərinə ev sahibliyi imkanlarının növbəti təsdiqidir.

Qeyd edək ki, FIFA 2025-ci ilin dekabrında U-15-lər arasında dünya çempionatının təsis olunması barədə qərar qəbul edib.

Xatırladaq ki, FIFA-nın İcraiyyə Komitəsinin 2025-ci il 2 oktyabr tarixində keçirilmiş iclasında 2027-ci ildə təşkil olunacaq U-20-lər arasında dünya çempionatının final mərhələsinə Azərbaycan və Özbəkistanın birgə ev sahibliyi edəcəyi açıqlanıb.

# Mehdi Cənnətov "Sumqayıt"ı I Liqa klubuna dəyişdi

***"Səbail" son olaraq Premyer Liqada "Sumqayıt"ın formasını geyinmiş Mehdi Cənnətovla 1+1 illik müqavilə imzalayıb.***



Bu barədə "Unikal"a klubdan məlumat verilib.

Rusiyanın "Anji" klubunun yetirməsi olan 34 yaşlı qolkiper "Zirə"də də çıxış edib.

Cənnətov həmçinin Azərbaycan milli komandasının heyətində 5 oyun keçirib.

# Meksika millisi Çexiyanı məğlub etdi



***Futbol üzrə dünya çempionatının Çexiya - Meksika oyunu keçirilib.***

"Unikal" xəbər verir ki, A qrupunun III turunun matçında birinci hissədə hesab açılmayıb. İkinci hissədə Şimali Amerika təmsilçisi Çexiyanı 3:0 hesabı ilə məğlub edib.

Beləliklə, Meksika A qrupunda maksimum nəticə göstərib.

# Çimərlik güləşi üzrə Azərbaycan çempionatı baş tutacaq

***İyunun 29-30-da çimərlik güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək.***



Yarışın ilk günündə yeniyetmə (U17) oğlanlar arasında qaliblər müəyyənləşəcək.

Növbəti gün isə kişilər və yeniyetmə qızlar qum üzərində güclərini sınayacaqlar. Su İdmanı Sarayı yaxınlığında yerləşən Avropa Oyunları Parkında (EGP Arena) təşkil ediləcək yarışda görüşlər hər gün 10:00-da başlayacaq.

Qeyd edək ki, çempionatın təşkilində məqsəd çimərlik güləşi üzrə yığma komandanın heyətini formalaşdırmaqdır.

# "Qəbələ" Seydina Keyta ilə müqavilənin müddətini uzadıb



***"Qəbələ" futbolçusu Seydina Keyta ilə müqavilənin müddətini uzadıb.***

Bu barədə "Unikal"a klubdan xəbər verilib.

Bölgə təmsilçisi mərkəz müdafiəçisi ilə yeni - 1 illik müqavilə bağlayıb.

Qeyd edək ki, 2026-cı ilin yanvarından "Qəbələ"nin şərəfini qoruyan Seydina Keyta bu müddət ərzində 19 oyunda 3 qol vurub.

# Braziliya qələbə qazandı, qrupu lider bitirdi

***Futbol üzrə dünya çempionatının Şotlandiya - Braziliya oyunu keçirilib.***



"Unikal" xəbər verir ki, C qrupunun III turunun matçında Braziliya millisi hesabı açıb - 1:0. Oyunun 7-ci dəqiqəsində Vinisus rəqib müdafiəçilərin səhvini bağışlamayıb.

Oyunun 45+3-cü dəqiqəsində Vinisus dubl müəllifi olub.

Daha sonra Braziliya üstünlüyünü möhkəmləndirib 3:0. Qarşılaşmanın 60-cı dəqiqəsində Mateus Kunya fərqlənib.

Beləliklə, Braziliya C qrupunu lider kimi başa vurub.